44_27 IYUl-QARA.qxd 12/12/2024 9:59 PM Page 1

UNİKAL

№46 (2228) 13 dekabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

# ABŞ Dövlət katibinin demokratiya imitasiyası, yoxsa insan hüquqları adı altında diplomatik müdaxilə...



Səh.9



## "Aİ-nin Ermənistandakı missiyasının fəaliyyəti başa çatmalıdır" - Hikmət Hacıyev

*İki ölkənin sərhədində üçüncü dövlətin qüvvələrinin yerləşdirilməsi narahatlıq doğuran faktdır. Azərbaycan Respublikası dəfələrlə bunu bildirib. Biz Ermənistan-Azərbaycan sərhədində Avropa İttifaqının (Aİ) missiyasının yerləşdirilməsinə hər hansı lüzum görmürük. "Unikal" xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib. Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyətinin başa çatmalı olduğunu vurğulayan Prezidentin köməkçisi əlavə edib: "Azərbaycan Prezidentinin, Fransa Prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin (sabiq prezidenti - red.) və Ermənistanın...*

Səh.3

## "Builki qiymət dəyişmələri ümumi iqtisadi artıma adekvatdır"



*Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a müsahibə verib. O, bu il paytaxtda mənzillərin qiymətinin necə dəyişdiyindən, bir neçə milyona satılan evlərə tələbatın olub-olmamasından, torpaq icarəsinə görə əldə edilən icarə haqqının ƏDV-dən azad olunmasının hansı üstünlüklərinin...*

Səh.4

## Teymur Musayevdən gözlənilən həmlə



*Azərbaycanda bir müddət əvvəl 50-yə yaxın estetik cərrahın qanunsuz yollarla fəaliyyət göstərməsi cəmiyyətdə ciddi müzakirələrə səbəb olub. Əvvəlcə onu xatırladaq ki, bu ilin noyabrında ABŞ-yə köçən aparıcı Qənirə Ataşovanın Azərbaycanda plastik-cərrah və kosmetoloq kimi fəaliyyət göstərən həkimlərlə...*

Səh.8

## "Münaqişə tipli halların olması qaçılmazdır" - Emin Əmrullayev



*"Bir milyon yarım şagirdi olan sistemdə gün ərzində hansısa şagirdlərin, valideynlərin və ya müəllimlərin arasında münaqişə tipli halların olması qaçılmazdır". "Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərin suallarını cavablandırarkən deyib.*

Səh.8

44_27 IYUI-QARA.qxd 12/12/2024 10:02 PM Page 2



# Məhkəmə Xoşqədəm Hidayətqızına qadağa qoydu



***Teleaparıcı Xoşqədəm Hidayətqızı və "ARB Media Qrup"a qadağa qoyulub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bu barədə Səbail Rayon Məhkəməsi qərar qəbul edib. Belə ki, Quliyeva Xumar Məzahir qızı məhkəməyə ərizə ilə müraciət edərək bildirib ki, Xoşqədəm Hidayətqızı tərəfindən şərəf və ləyaqətinin, işgüzar nüfuzunun ləkələnməsinə səbəb olan məlumatların yayılması hərəkətlərinə məruz qalıb.

Şikayətçi qeyd edib ki, bu hal itkin düşən qardaşlar Mahir və İldırım Cəbrayılovlar barəsində danışılan verilişlərdə baş verib. Belə ki, Mahir 1997-ci ildə,

İldırım isə 2004-ci ildə Litvanın paytaxtı Vilnüs şəhərində itkin düşüblər. Bu günə qədər aqibətləri məlum deyil. X.Quliyev onlardan yalnız Mahiri uzaq qohumu olan Rəna xanımın vasitəsilə tanıyıb.

1991-ci ildə Mahir öz dostları ilə bərabər onun oğlu Cavidanın kiçik toy məclisində iştirak edib. Həmin vaxtdan etibarən Mahirlə yaxın əlaqəsi, mütəmadi ünsiyyəti olmayıb. Bütün bunlara baxmayaraq, Xoşqədəm Hidayətqızı onun oğlunun kiçik toy məclisini əks etdirən videogörüntüləri sırf Mahirin və onun həmin videoda görünməsi səbəbi ilə X.Quliyevanın razılığı olmadan efir vasitəsilə yayımlayıb.

Səbail Rayon Məhkəməsində hakim Mədinə Bağırovanın sədrliyi ilə keçirilən iclasda bu barədə birtərəfli efir müzakirələrinin aparılmasının 1 ay müddətinə "ARB" TV-yə və "Səni Axtarıram" adlı verilişin lahiyə rəhbəri və aparıcısı Baxşəliyeva Xoşqədəm Hidayət qızına qadağan edilməsi ilə bağlı qərar verilib. Müvəqqəti təminat tədbiri 11.01.2025-ci il tarixdən qüvvədən düşür.

# Əməkdar artist: "Dedilər ki, anan yaşamayacaq"

***"Mənim üçün anamın, atamın, bacımın və qardaşımın varlığı hər şey deməkdir. Allah xalqımıza bir daha o pandemiya dönəmini və çətinlikləri yaşatmasın. Ailəsini və valideynlərini sevən hər bir övlad düşünürəm ki, o anda əlindən gələni edərdi ki, təki anası yaşasın. O zaman hansı xəstəxananın qapısını döyürdümsə deyirdilər ki, ananız yaşamayacaq".***



Bu sözləri Əməkdar artist Nigar Şabanova qonaq olduğu "Qonaqcanlı" verilişində deyib. Pandemiya dövründə anasının koronavirusa yoluxduğunu deyən sənətçi bildirib ki, həkimlər onun valideyninin yaşayamaq şansının az olduğunu deyiblər: "Heç bir xəstəxana anamı o vəziyyətdə qəbul etmirdi. Deyirdilər ki, ananız aparatdan ayrılmalıdır. Varım-yoxum, nəyim var idisə dedim ki, anam üçün hər şey edəcəyəm. Mən edim, əlimdə olan hər şeyi itirim amma mən sabah özümü günahlandırmayım ki, kaş ki bunu anam üçün edərdim. Allaha qurban olum! O mənim əziyyətimi yerdə qoymadı. Anam üçün hər şey etdim. Əlimdə olan hər şeyi verdim. Allah bir yolu açırsa, bəndə kimdir ki, ona manə olsun. Allah əziyyətimi itirmədi. Əziyyətimi dəyərləndirdi. Bu günləri də anam Akifə xanım yaşayır. Düzdür, onun müəyyən sıxıntıları var. Anam qəzə bilmir. Təssəvvür edin, pandemiya dövrüdür. Heç kim heç kimin qapısını döymür. Həkimlər dedilər ki, ananı süni nəfəs apartından ayrılmalıyıq. Onun yaşamasına 3 faiz inam var. Atam da o ərədə də koronavirusa yoluxmuşdu və o da xəstəxanada idi. Evdə qonaq otağında da oturub özümə dedim ki, Allahım heç nə istəmirəm, anam danışmasın, əli tutmasın, gəzməsin bir tək nəfəsi gəlsin və məndə baxım görüm ki, o oturub mənə baxır (ağlayır). Çox şükür!". (olay.az)



# "Bunu heç vaxt övladıma yaşatmaq istəmirəm" - Aysun İsmayılova

***Müğənni Aysun İsmayılova "Gün ortası" verilişində qonaq olub.***

Milli.Az xəbər verir ki, atasız günlərini yada salan sənətçi efirdə kövrək anlar yaşayıb. Özünün və anasının yaşadığı çətinlikləri övladına heç vaxt yaşatmaq istəmədiyini deyən Aysun ağlayaraq hisslərini dilə gətirib: "Hətta Raminə deyirəm ki, biz küssək, dalaşsaq, danışmasaq da, bunu uşağa yansıtmayaq".

# "35 il muğam oxudu, heç kim onu tanımadı"



***Müğənni İlqar Xəyal açıqlaması ilə diqqət çəkib.***

Sənətçi "Avroviziya" təmsilçilərimizdən olan İlkin Dövlətovun muğam oxuduğu ərəfədə tanınmadığını deyib. "Gün ortası" verilişində qonaq olan İ.Xəyal bunları əlavə edib: "Estrada sahəsində məni seçdi gəldi. Ondan soruşdum ki, kimin sinfini bitirmisən? Bəlli oldu ki, 35 ildir muğam oxuyur, sənət yolunda külüng döyür. Əlində tar və kamanla təsnif oxuyur. Sadəcə Səid Rüstəmovun "Getmə-getmə" mahnısı ilə tanındı. Hətta "Avroviziya"ya qədər gedə bildi. Bu insan anladı ki, hansı addımları atmaq lazımdır". /Axşam.az

# "Dostlarıma yazıb pul istəyir" - Renka



***Renka ləqəbi ilə tanınan rəqqasə Rəna Ağamuradovanın (Renka) adından istifadə edilərək dələduzluq törədilib.***

Bu barədə rəqqasə özü sosial şəbəkə hesabında məlumat yayıb. Renka bildirib ki, naməlum şəxs "Votsap"da onun adından və fotosundan istifadə edərək tanışlarından ona pul göndərməsini istəyir.

"Dostlar, mənim adımdan pul istəyirlər. Artıq üçüncü şəxsdir ki, mənə zəng edir. Fırıldaqçıdır" deyə, Renka sosial şəbəkədə yazıb. /lent.az



## "Ermənistanla sülh müqaviləsi layihəsi üzrə 15 maddə razılaşdırılıb" - XİN

***"Ermənistanla sülh müqaviləsi layihəsi 17 maddədən ibarətdir, artıq 15 maddə razılaşdırılıb".***

"Unikal" xəbər verir ki, bunu xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında deyib. Nazir qeyd edib ki, 2 maddə ilə bağlı işlər isə davam edir. Ceyhun Bayramov qeyd edib ki, postmünaqişə dövründə Azərbaycan və Ermənistan sülh danışıqlarını və mətn üzrə mübadilələri davam etdiriblər.

XİN rəhbəri bildirib ki, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları var: "Bu yaxınlarda Ermənistan Konstitusiya Məhkəməsinin qərarı bu işi daha da mürəkkəbləşdirib. Çünki məhz Ermənistan Konstitusiyasının preambulasında Ermənistan müstəqillik əldə edəndən sonra olan sənədə istinad var və o sənəddə də Azərbaycana ərazi iddiaları var".

"Zəngəzur dəhlizinin açılması ilə bağlı Azərbaycan öz ərazisində işləri sürətlə davam etdirir, Araz körpüsünün tikintisi davam edir", - deyən nazir bildirib ki, Ermənistanın öz öhdəliklərini yerinə yetirməsi ilə bağlı son müsbət qərar yoxdur.

## "Münaqişə tipli halların olması qaçılmazdır" - Emin Əmrullayev

***"Bir milyon yarım şagirdi olan sistemdə gün ərzində hansısa şagirdlərin, valideynlərin və ya müəllimlərin arasında münaqişə tipli halların olması qaçılmazdır".***



"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərin suallarını cavablandırarkən deyib.

"Biz bir milyon yarım şagird, onların valideynləri və iki yüz minə yaxın müəllimdən danışırıq. Baş verən bütün hallara qanunvericilik çərçivəsində baxılmalıdır. İnzibati qaydada pozuntular, cinayət xarakterli məsələlər varsa, bunları hüquq-mühafizə orqanlarına yönləndiririk. Təlim-tərbiyə ilə bağlı məsələdirsə, problemi valideynlərlə həll etməyə çalışırıq", - deyə nazir bildirib.

# Teymur Musayevdən gözlənilən həmlə

## Prokurorluq saxta plastik cərrahlarla bağlı hərəkətə keçdi - Səhiyyə naziri qalmaqalda adları hallanan vəzifəliləri cəzalandıracaqmı?

***Azərbaycanda bir müddət əvvəl 50-yə yaxın estetik cərrahın qanunsuz yollarla fəaliyyət göstərməsi cəmiyyətdə ciddi müzakirələrə səbəb olub.***

Əvvəlcə onu xatırladaq ki, bu ilin noyabrında ABŞ-yə köçən aparıcı Qənirə Ataşovanın Azərbaycanda plastik-cərrah və kosmetoloq kimi fəaliyyət göstərən həkimlərlə bağlı paylaşımları geniş ictimai rezonans doğurmuşdu. Aparıcı bir çox həkimin saxta yolla diplom aldığını və ya adi sertifikatlarla bu işlə məşğul olduğunu iddia etmişdi. "2011-ci ildən sonra Azərbaycanda rezidentura təhsili tətbiq olunur. Qanuna əsasən, rezidenturanı bitirməyənlər ixtisaslı həkim ola bilməz. Amma təqdim etdiyim siyahıdakı həkimlərin heç biri estetik cərrahiyyə üzrə rezidentura təhsili almayıb. Sual yaranır, bəs necə oldu ki, bu adamlar bir gecədə estetik cərrah oldular?" yazan Ataşova eyni zamanda Səhiyyə Nazirliyini saxta diplom satmaqda ittiham etmişdi: "Səhiyyə Nazirliyinə düz 30 min manat ödəyib, "möcüzəvi şəkildə" ixtisas dəyişdirmək mümkündür. 30 min manata nazirlik dövlətin möhür və imzasını belə "hədiyyə" edir. Nə deyək, məbləğ o qədər "ucuzdur" ki, insanın az qala ürəyi ağrıya. Bu möhtəşəm sertifikatın qiymətini niyə 500 min manat etməyiblər? Axı, peşəkar fırıldaqlar daha bahalı olmalıdır, elə deyilmi? Əlbəttə, saxta cərrahlarımız da özlərini daha da inandırıcı göstərmək üçün xaricdə qısamüddətli kurslara qatılırlar. Təsəvvür edin, gedib bir-iki gün xaricdə "təhsil" alır, sonra isə böyük fəxrlə geri qayıdıb, "Beynəlxalq Sertifikatlı Estetik Cərrah" olduqlarını iddia edirlər".



Aparıcı saxta plastik cərrahlara verilən sertifikatlara dair sənədlərdəki imzaların müəlliflərini də açıqlamışdı. Bunlar Səhiyyə Nazirliyinin Elm və təhsil şöbəsinin müdiri Səidə Rüstəmova və nazirin müavini İlqar Qasımovdur.

Yola salmaq üzrə olduğumuz həftə öncə "Bakupost" belə bir məlumat yayıb ki, artıq aidiyyatı qurumlar həmin cərrahlarla və onları sertifikasiyadan keçirən qurumun məsul şəxsləri ilə bağlı işi nəzarətə götürüb. "Məlumata görə, həkimlərin ixtisaslarının dəyişdirilməsi, onlara sertifikatlar verilməsi məsələsində xeyli qanun pozuntularının olduğu üzə çıxıb. Yayılan xəbərlərdə qeyd olunan sertifikatların 30-50 min manat rüşvətlə əldə edilməsinə dair faktların araşdırılmasına başlanılıb.

Eyni zamanda səhlənkarlıq, qeyri-peşəkarlıq, insanların sağlamlığına zərər vurmaqda adı daha çox halanan şəxslərin bu sahədə fəaliyyət göstərmələri ilə bağlı icazələrinin ləğv olunması barədə qərar qəbul olunub.

O da bildirilir ki, müvafiq icazəsi olmadan bu sahədə fəaliyyət göstərən digər cərrahların aşkarlanaraq siyahısının tərtib olunması və onlar barəsində tədbir görülməsi üçün araşdırmalar davam etdirilir.

Yaxın vaxtlarda həmin siyahının tədbir görülməsi üçün müvafiq dövlət qurumuna göndəriləcəyi, həmçinin plastik cərrahiyə sahəsində sertifikatlaşdırma qaydalarının sərtləşdiriləcəyi bildirilir" - xəbərdə deyilirdi.

Bunun ardınca Baş Prokurorluğun mətbuat xidmətinin rəisi Saleh Hacıyev cəmiyyətdə geniş rezonans doğuran məsələyə münasibət açıqladı. O qeyd etdi ki, burada problemin mahiyyəti təkcə gözəllik axtarışında olan vətəndaşların hüquqlarının pozulması, onların sağlamlığına hər hansı xəsarət yetirilməsi ilə yekunlaşmır. "Burada ölkənin tibb sisteminin bütövlüyünün təmin olunması, cəmiyyətimizin sağlamlığının qorunması ilə bağlı təhdidlərlə üzləşirik. Bu sahədə prokurorluq orqanları tərəfindən mütəmadi olaraq işlər aparılır. Vaxtaşırı da bununla bağlı mediada ictimaiyyətə məlumatlar verilir. Qənirə xanımın qeyd etdiyi siyahı açıqlanmamışdan qabaq artıq may ayında prokurorluq orqanları tərəfindən geniş araşdırma aparılmışdı. Araşdırmalarda Səhiyyə Nazirliyi də yaxından iştirak etmişdi. Araşdırmalar zamanı bir neçə istiqamətlər üzrə pozuntular aşkar olunmuşdu", - mətbuat katibi İTV-nin efirində belə dedi.

S.Hacıyevin sözlərinə görə, ilkin olaraq müəyyən olunub ki, müvafiq tibb təhsili olmayan şəxslər tərəfindən plastik əməliyyatlar icra olunur: "Bəzi hallarda müəyyən olunmuşdur ki, şəxsin tibb təhsili var, amma plastik tibbi əməliyyatları icra etməsi üçün praktiki tibbi fəaliyyətə dair qanunla nəzərdə tutulmuş sertifikasiya şəhadətnaməsi yoxdur. Ümumilikdə pozuntularla bağlı araşdırma aparan zaman, 18 halda İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə həm hüquqi, həm də vəzifəli şəxslər barəsində inzibati icraatlar başlandı. Həmin şəxslərin əksəriyyəti paytaxt ərazisində fəaliyyət göstərsə də, bölgələrdə də araşdırmalar aparılır. Qənirə xanımın qeyd etdiyi şəxslərin bəziləri barəsində də inzibati icraatlar başlanıb, bəzi şəxslər barəsində faktlar öz təsdiqini tapmayıb. 8 halda qanun pozuntularını doğuran səbəb və şəhidlərin aradan qaldırılması üçün xəstəxanalara Səhiyyə Nazirliyi vasitəsilə təqdimatlar göndərilmişdi. Həmin təqdimatların müzakirəsində də prokurorluq əməkdaşları, xəstəxana rəhbərliyi və həmin sahədə çalışan həkimlər iştirak etmişdi. Bundan başqa müəyyən hallar aşkar olunmuşdur ki, tibbi fəaliyyət göstərən şəxslər kobud qanun pozuntularının astanasındadır. Yəni onlar bir neçə addım sonra sadaladığımız ciddi qanunsuzluqları törədə bilərlər. Ona görə də onlara xəbərdarlıqlar olunmuşdur. İşlər davam edir, vətəndaş müraciətlərindən əlavə biz sosial media vasitəsilə də ictimailəşən müraciətləri öyrənirik".

Qeyd edək ki, məlum qalmaqal ortaya çıxandan bir qədər sonra mediada və cəmiyyətdə səhiyyə naziri Teymur Musayevin məsələyə susqun yanaşması tənqid obyektinə çevrilmişdi. Lakin yuxarıda yazılanlardan belə anlaşılır ki, aradan keçən müddətdə Səhiyyə Nazirliyi prokurorluq orqanları tərəfindən aparılan geniş araşdırmada yaxından iştirak edib. Bununla belə, nazir Musayevdən hələ də müəyyən gözləntilər var. Xüsusilə Səhiyyə Nazirliyinin qalmaqalda adları keçən yüksək vəzifəli əməkdaşları barədə hansı tədbirlərə əl atacağı maraq doğurur. Təcrübə göstərir ki, hər hansı nazirlikdə ciddi nöqsanlara yol verən vəzifəli şəxslərin hərəkətlərinə göz yumulması, onların ya tamamilə cəzasız qalması, ya da yüngül cəzalandırılması sonradan elə nazirlik rəhbərinin özünə başağrısı yaradır - belə nöqsanlar adiləşir və naziri hədəfə çevirir.

Ümid edək ki, Teymur Musayev bu sadə həqiqətin fərqindədir...

***Sənan Mirzə***

44_27 IYUI-QARA.qxd 12/12/2024 10:04 PM Page 4



# ABŞ Dövlət katibinin demokratiya imitasiyası, yoxsa insan hüquqları adı altında diplomatik müdaxilə...



***Xəbər verildiyi kimi, Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinken Azərbaycan hökumətini insan hüquqlarını müdafiə etdiklərinə görə haqsız yerə həbs edilənləri azad etməyə çağırış edən bəyanat səsləndirib. Bu da təbii ki, Azərbaycana qarşı növbəti qərəzli mövqe kimi dəyərləndirilib.***

“11 dekabr 2024-cü il tarixində ABŞ dövlət katibi Antoni Blinkenin ölkəmizdə insan hüquqları və azadlıqlarının qorunması ilə bağlı mövcud vəziyyəti təhrif edən, Azərbaycanın məhkəmə-hüquq prosesinə müdaxilə məqsədli qərəzli bəyanatını qətiyyətlə pisləyir və rədd edirik”. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin ABŞ dövlət katibi Antoni Blinkenin ölkəmiz əleyhinə bəyanatına dair şərhində deyilir.

”Təəssüf ki, son 4 il ərzində dövlət katibi Blinkenin rəhbərlik etdiyi ABŞ Dövlət Departamentinin Azərbaycanın daxili işlərinə müdaxilə ilə məşğul olması səbəbindən, sözügedən dövr bir çox dönəmlərdə dostluq və əməkdaşlıq ilə yadda qalan Azərbaycan-ABŞ münasibətləri üçün itirilmiş illər kimi qiymətləndirilir. Antoni Blinken tərəfindən ölkəmizdə insan hüquqları ilə bağlı mövcud vəziyyətə münasibətdə ikili standartlar mövqeyindən çıxış edilməsinin ABŞ-nin bütövlükdə Cənubi Qafqaz siyasətini iflic vəziyyətinə gətirməsi hər kəsə yaxşı məlumdur. Ümidvarıq ki, yeni ABŞ administrasiyası dövründə Azərbaycan və Birləşmiş Ştatlar arasında qarşılıqlı dostluq və tərəfdaşlıq münasibətləri yenidən bərpa olunacaq”, - A.Hacızadə vurğulayıb.

”Blinkenin insan hüquqları sahəsində mükafatlandırdığı ölkələr Boliviya, Kolumbiya, Esvatini, Qana, Küveyt, Myanma və Qırğızıstandan olan bir neçə insan hüquq müdafiəçisidir”. Bunu ”Unikal”a açıqlamasında deputat Azər Badamov deyib. Deputatın sözlərinə görə, onda belə hesab etmək olar ki, ABŞ-da, Fransada, Niderlandda və digər Qərb ölkələrində insan hüquqlarının müdafiəçilərinə ehtiyac yoxdur: ”Yəni, belə çıxır ki, insan hüquqları termini Qərbin sabitliyi pozmaq istədiyi ölkələrə aiddir. Çünki, özləri insan hüquqlarından uzaq olduğu halda bizdən insan hüquqları və demokratiyanı tələb edirlər. Qeyd etmək istəyirəm ki, həbs olunanlara qarşı qaldırılmış ittihamlar kifayət qədər əsaslıdır və ona görə də saxlanılırlar. İstintaq tədbirləri başa çatandan sonra onların azad olunacağı və ya da həbsdə saxlanılacağı ilə bağlı qərarı məhkəmə verəcək. Hüquqi dövlətlər məhkəminin qərarlarına hörmətlə yanaşır. Blinkenin ölkəmizin daxili işlərinə qarışıb məhkəmənin işinə təsir etməyə çalışmasın. Əgər Blinkenə həqiqətən insan hüquqları maraqlıdırsa, Ermənistandan deportasiya olunmuş 300 min azərbaycanlının və öz vətənində 30 il məcburi köçkün həyatını yaşamağa məcbur edilərək bütün mədəni irsi dağıdılmış azərbaycanlıların hüquqlarının müdafiəsindən danışsın. Amma Blinkenə azərbaycanlıların hüquqları deyil, onların maliyyələşdirərək çirkin planlarını həyata keçirməyə çalışan bir qrupun hüquqları maraqlıdır. Məhz ona görə də onlar mükafatlandırılır və işlədilən cinayətlərə baxmayaraq azad olunmalarını istəyir. Blinkenin hakimiyyətinə də çox zaman qalmayıb. Bir aydan sonra Tramp administrasiyası formalaşacaq və Blinkenin qərəzli açıqlamaları tarixin arxivinə qovuşacaq. Azərbaycan dövləti Blinkenin diktəsi ilə kimisə həbs edib və ya həbsdən azad etmir. Dövlətimiz məhkəmənin qərarlarına hörmətlə yanaşır və cinayətkar əməlləri sübut olunan hər bir şəxsin əməlləri hüquqi müstəvidə dəyərləndirilir”.

Qərbi Azərbaycan İcması ABŞ Dövlət katibi Antoni Blinkenin və digər ABŞ rəsmilərinin Azərbaycanın daxili işlərinə artıq tendensiya halını almış kobud müdaxilə cəhdlərini kəskin şəkildə pisləyib. Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda qeyd edilib. Bəyanatda vurğulanıb ki, ABŞ rəsmiləri torpaqları işğal edilmiş Azərbaycanın, yüz minlərlə məcburi köçkünün, minlərlə itkin ailəsinin deyil, işğalçı Ermənistanın, Azərbaycan cəmiyyətində heç birnüfuzu olmayan, rüsvay olmuş bir qrup marginal elementin yanında yer alıb: ”Təəssüf ki, biz bu illərdə ABŞ-nin Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini, etnik təmizləmə siyasəti həyata keçirməsini, biz Qərbi azərbaycanlıları deportasiya etməsini pislədiyini görmədik. ABŞ rəsmiləri torpaqları işğal edilmiş Azərbaycanın, yüz minlərlə məcburi köçkünün, minlərlə itkin ailəsinin deyil, işğalçı Ermənistanın, Azərbaycan cəmiyyətində heç birnüfuzu olmayan, rüsvay olmuş bir qrup marginal elementin yanında yer aldı. Vətən müharibəsindən sonra bütün bunların, xüsusilə ölkələrin ərazi bütövlüyü və suverenliyinə münasibətdə ABŞ-nin fərqli yanaşmasının bir daha şahidi olduq. ABŞ-nin dinc yolla öz dədə-baba yurdlarına qayıdış xəttini seçən Qərbi Azərbaycan İcmasının elə həmin Antoni Blinkenə ünvanladığı məktuba heç bir reaksiya vermədiyini, lakin Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasətinin həyata keçirilməsində iştirak edən və bu günün özündə də Ermənistanda Azərbaycanın suverenliyini təhdid edən separatçılara qucaq açdığını, viza verdiyini, ABŞ-ın müxtəlif təsisatlarında çıxış etmək imkanı yaratdığını gördük”.

Qeyd edilib ki, ABŞ Azərbaycan cəmiyyətində olan-qalan nüfuzunu da itirib: ”Özünü dini azadlıqlara hörmət edən ölkə kimi qələmə verən, “mötəbər” hesabatlar hazırlayaraq ölkələri müxtəlif uydurma siyahılara daxil edən, Qarabağda “erməni irsi”nin vəziyyəti ilə bağlı narahatçılığını ifadə edən ABŞ-nin Azərbaycan xalqının Ermənistan ərazisində zəngin mədəni irsinin dağıdılmasını, təhrif edilməsini pislədiyini eşitmədik. Bütün bunlara görə də, ABŞ Azərbaycan cəmiyyətində olan-qalan nüfuzunu da itirdi. ABŞ “insan hüquqları” mövzusunu, yalan xəbər mediasını, “müstəqil” QHT-ləri Azərbaycana qarşı silah kimi istifadə etməkdənsə, qoy özü ən əsas beynəlxlaq insan hüquqları konvensiyalarına qoşulsun, müxtəlif beynəlxalq təşkilatların çoxsaylı hesabatlarında yer almış polis tərəfindən həddindən artıq gücün tətbiq edilməsi, hüquq-mühafizə orqanlarının irqi əsasda məlumatlar toplaması(racial profiling), strukturlaşdırılmış irqçilik kimi praktikalara son qoysun, silah zorakılığı problemini həll etsin, məhbuslara verilən işgəncə hallarını və digər qanunsuz əməlləri araşdırsın”.

***A.Kəlbiyev***



# 20 yanvardan sonra ABŞ-da yeni mərhələ başlayacaq

***“Gələn ilin yanvarın 20-də andiçmə mərasimi ilə Ağ Evdə yerləşəcək Donald Tramp hələ işə başlamamış beynəlxalq aləmdə onun özü və administrasiyası üçün yaxşı start vəziyyəti yaranıb”.***

Bu fikirləri “Unikal”a “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib. O bildirib ki, Tramp seçki kampaniyası dövründə “andiçmədən dərhal sonra Rusiya-Ukrayna müharibəsini bitirəcəm” deyirdi. O Prezident səhaliyyətinə başlamamış Rusiya və Ukraynada atəşkəsdən danışmağa başlayıblar. Hər iki tərəfdə müharibədən yorğunluq hiss olunur: “Bu gedişat Trampın xeyrinədir. Ukrayna Prezidenti Volodimir Zelenski ilk dəfə “müharibə yolu ilə itirdiklərimizi geri qaytarmaq çətin olacaq” kimi açıqlamalar verməyə başlayıb. Zelenski özünü və xalqını ona hazırlayır ki, Trampın Prezidentliyi dövründə ABŞ-ın Ukraynaya maliyyə və hərbi dəstəyi azala bilər. Bu isə Ukraynanın müharibəni davam etdirmək imkanlarını azaldacaq. Buna görə də Zelenski müvafiq şərtlər daxilində müharibənin dayandırılması ehtimalını səsləndirməyə başlayıb. Tramp və onun adminstrasiyasına da elə bu lazımdır. Kreml də atəşkəsin əleyhinə deyil, çünki bu halda işğal etdiklərini əlində saxlaya biləcək”.

Politoloq onu da bildirib ki, Suriyadakı son olaylar da Tramp üçün faydalıdır: “Əsəd rejiminin yıxılmasıyla ABŞ hərbi qüvvələrinin Suriyada qalmasının aktuallığı azalıb. Tramp da bunu istəyir. Bundan başqa ABŞ-ın PKK və ona bağlı terrorçu qruplara dəstək verməsinin əhəmiyyəti qalmayıb. Suriyada hakimiyyəti ələ keçirən qüvvələr Türkiyənin dəstəyi ilı PKK-nın Suriyada nəzarət etdiyi bölgələri ard-arda ələ keçirirlər.

Donald Trampın başqa dövlətlərlə sərt iqtisadi və miqrasiya siyasətinə hazırlaşanlar da var. Tramp ABŞ-ın iki qonşusu olan Meksika və Kanadanın ünvanına ciddi xəbərdarlıqlar edib. Çin də Trampın Prezidentliyinə hazırlaşır. Tramp Çin məhsullarına rüsumları artıracaq. ABŞ Ticarət Komissiyasının son hesabatına görə, bir vaxtlar ABŞ-da dominant geyim tədarükçüsü olan Çinin 2013-2023-cü illər arasında bazar payı 16,4 faiz aşağı düşüb. Bundan da Çinə qonşu olan Vyetnam, Banqladeş, Hindistan və Kamboca faydalanıblar. Trampın “ilk növbədə Amerika” şüarı yerli istehsalın artırılmasına hədəflənib”.

***M.İbrahimli***

44_27 IYUl-QARA.qxd 12/12/2024 10:04 PM Page 5



# Prezident və birinci xanım Heydər Əliyevin məzarını ziyarət ediblər



***Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 21 il ötür.***

"Unikal" xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

# Paşinyan Azərbaycanla sülhü müzakirə etdi



***Ermənistanın baş naziri Nikol Paşinyan Avropa Şurasının baş katibi Alen Berse ilə telefon danışığı aparıb.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Həmsöhbətlər Ermənistan-AŞ tərəfdaşlığı, eləcə də regional sabitliklə bağlı məsələləri müzakirə ediblər. Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi məsələsi də müzakirə mövzusu olub.

***Ağarza Elçinoğlu***

# Hərbi xidmətə çağırılan şəxslərin nəzərinə

***Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən yekun tibbi müayinələrin aparılması prosesi davam etdirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) məlumatında deyilib.

Bildirilib ki, prosesin elektron infrastruktur üzərindən həyata keçirilməsi təmin edilir ki, bu da müayinələrin çevikliyini və şəffaflığını şərtləndirir:

"Belə ki, çağırışçının yekun tibbi müayinəsinin aparılması üçün Mərkəzi Hərbi-Həkim Komissiyasının rəyi təsdiq edilərək Nazirliyin "Tibbi şəhadətləndirmə" altsisteminə müvafiq göndəriş daxil edilir. Göndəriş əsasən çağırışçılar, onlar üçün avtomatik təyin edilən e-növbəlilik qaydasında Agentliyin Tibbi Qiymətləndirmə Mərkəzində əyani müayinələrdən keçirlər. Müayinə edilənlər aşağıdakı 4 kateqoriya üzrə yekun tibbi müayinələrə cəlb edilirlər:

Sıradankənar həqiqi hərbi xidmətə yararlılıq haqqında ("B" kateqoriyası);

Həqiqi hərbi xidmətə müvəqqəti yararsız hesab edilməklə çağırışa möhlət verilməsi haqqında ("Ç" kateqoriyası);

Dinc dövrdə həqiqi hərbi xidmətə yararsızlıq, müharibə dövründə məhdud yararlılıq haqqında ("C" kateqoriyası);

Həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsızlıq haqqında ("D" kateqoriyası)

Müayinənin yekun qərarı da e-sistemə daxil edilir və həmin qərar barədə çağırışçıya elektron qaydada məlumat göndərilir".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5[a]
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Bakı Hərbi Məhkəməsində 2 milyonluq yeyinti ilə bağlı məhkəmə prosesi başladı

***Müdafiə Nazirliyinin hərbi hissəsində maliyyə xidmət rəisi işləmiş Elvin Cəfərovun 2 milyonluq mənimsəmə işi üzrə məhkəmə prosesi başlayıb.***

"Unikal"ın məlumatına görə, Bakı Hərbi Məhkəməsində hakim Fikrət Əliyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Qeyd edək ki, Elvin Cəfərov Müdafiə Nazirliyinin müxtəlif hərbi hissələrində maliyyə xidmət rəisi işləyib.



Cinayət işi üzrə məhkəmə baxışı dekabrın 26-na təyin edilib.

Qeyd edək ki, E.Cəfərov Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) maddəsi ilə ittiham olunub. İş üzrə dövlətə dəymiş ziyan 2 milyon 200 min manatdır.

Bu ilin may ayında Dövlət Təhlükəsizliyi Xidmətinin vəsatəti əsasında onun barəsində həbs qətimkan tədbiri seçilib.

Elvin Cəfərov ötən ilin dekabrında hazırda Müdafiə Nazirliyində 143 milyon manatlıq mənimsəmə ilə bağlı məhkəmə prosesində şahid qismində dindirilib.

# Temperatur $10^{0}$ enəcək, yollar buz bağlayacaq

***Ölkə ərazisində havanın temperaturunun ötən günlərlə müqayisədə tədricən 5-10 dərəcə enəcəyi gözlənilir.***

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında dekabrın 12-si axşamdan 13-ü səhərədək arabir yağış yağacağı, 14-də isə yağışın yarımadanın bəzi yerlərində sulu qara keçəcəyi gözlənilir. Yağıntıların yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli və intensiv olacağı ehtimalı var.

Azərbaycanın rayonlarında da dekabrın 12-si gününün ikinci yarısından Şimal və Qərb rayonlarından başlayaraq bəzi ərazilərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir, ayrı-ayrı yerlərdə yağıntının intensiv olacağı ehtimal olunur.

Dekabrın 13-ü gündüz yağıntıda fasilə yaransa da, qeyri-sabit, yağıntılı hava şəraitinin 14-ü gündüzədək davam edəcəyi gözlənilir.



Dekabrın 14-ü və 15-də dağlıq rayonlarda gecə və səhər yolların buz bağlama ehtimalı var.

# Qərbi Azərbaycan İcmasının ilk xarici ofisi qardaş Türkiyədə açıldı

***İzmir şəhərində Qərbi Azərbaycan İcmasının (QAİ) Türkiyə ofisinin açılışı olub.***




"Unikal" xəbər verir ki, Türkiyənin dövlət rəsmilərinin, vilayət rəhbərliyinin, ziyalıların və İzmirdə yaşayan azərbaycanlıların iştirakı ilə təşkil olunan tədbirdə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə çıxış edən QAİ Türkiyə təmsilçisi Asif Qurban bunun icmanın Azərbaycandan kənarda açılan ilk ofisi olduğunu bildirib və Türkiyədə sayı təxminən 1,5 milyon nəfər olan Qərbi Azərbaycan əsilli şəxsləri ətrafında birləşdirmək, bu insanların tarixi vətənlərinə ləyaqətli qayıdış hüququnu təşviq etmək məqsədi daşıdığını deyib. O, yeni yaradılan ofisin qarşısında duran vəzifələr, həyata keçirilməsi nəzərdə tutulan akademik konfranslar, simpoziumlar və digər fəaliyyət istiqamətləri barədə məlumat verib.

Tədbirdə çıxış edən Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov XIX əsrdə çar Rusiyası tərəfindən Azərbaycana qarşı aparılan demoqrafiyanın dəyişdirilməsi siyasəti haqqında geniş məlumat verib, bunun davamında XX əsrdə Ermənistanın məqsədyönlü siyasəti ilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın doğma yurdlarından didərgin salındığını vurğulayıb. Səfir, bir sıra dövlətlərin Azərbaycana qarşı siyasətində önə çıxan ikili standartlara diqqət çəkərək, Qərbi azərbaycanlıların dədə-baba yurdlarına qayıtması hüququna etinasız yanaşmanın yolverilməz olduğunu qeyd edib. O, Ümummilli Lider Heydər Əliyevin anım günü kimi önəmli bir tarixdə açılışı həyata keçirilən QAİ-nin Türkiyə təmsilçiliyinin Azərbaycan həqiqətlərinin Türkiyə ictimaiyyətinə çatdırılmasında fəal rol oynayacağına ümidvar olduğunu deyib.

Qeyd edək ki, QAİ Türkiyə ofisinin rəhbəri, əslən Qərbi Azərbaycanın Hamamlı mahalının Saral kəndindən olan Asif Qurban 31 ildir ki, İzmirdə yaşayır və bir çox qeyri-hökumət təşkilatlarına rəhbərlik edib.

Nümayəndəliyin fəaliyyət istiqamətləri arasında Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında ictimaiyyəti məlumatlandırmaq, ardıcıl şəkildə Qərbi Azərbaycandan deportasiya olunan 300 mindən çox soydaşımızın beynəlxalq səviyyədə haqq və hüquqlarının bərpa olunması istiqamətində beynəlxalq təşkilatlarla iş sistemini gücləndirmək kimi məsələlər yer alır.

44_27 IYUl-QARA.qxd 12/12/2024 10:04 PM Page 6



# Dövlət və hökumət rəsmiləri Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər

***Dekabrın 12-si Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günüdür.***

"Unikal" xəbər verir ki, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri, hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları, diplomatik korpusun nümayəndələri Fəxri xiyabanda Ümummilli Lider



Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müasir müstəqil Azərbaycanın banisi və qurucusu Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri qoyulub.

# "Aİ-nin Ermənistandakı missiyasının fəaliyyəti başa çatmalıdır" - Hikmət Hacıyev

***İki ölkənin sərhədində üçüncü dövlətin qüvvələrinin yerləşdirilməsi narahatlıq doğuran faktdır. Azərbaycan Respublikası dəfələrlə bunu bildirib. Biz Ermənistan-Azərbaycan sərhədində Avropa İttifaqının (Aİ) missiyasının yerləşdirilməsinə hər hansı lüzum görmürük.***

"Unikal" xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyətinin başa çatmalı olduğunu vurğulayan Prezidentin köməkçisi əlavə edib: "Azərbaycan Prezidentinin, Fransa Prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin (sabiq prezidenti - red.) və Ermənistanın baş nazirinin iştirakı ilə Praqada razılaşdırılmışdı ki, missiya qısamüddətli olacaq. Amma gördüyümüz kimi, missiya davamlı prosesə çevrilir və onun tərkibi genişləndirilir. Hətta coğrafi mandat ərazisi də genişləndirilməkdədir".

O bildirib ki, Azərbaycanla Ermənistan arasında qarşılıqlı anlaşma və sülh şəraitində delimitasiya-demarkasiya prosesi aparılırsa, burada üçüncü qüvvənin olması, onun tərkibinin hərbi xarakterli qüvvələrlə zənginləşdirilməsinə və genişləndirilməsinə ehtiyac görmürük: "Ona görə də sülhün gücləndirilməsi bilavasitə Azərbaycanla Ermənistan arasında olan prosesdir və ikitə-



rəfli xarakter daşıyır. Əksinə, üçüncü qüvvənin iki ölkənin sərhədində olması vəziyyətinin müəyyən dərəcədə gərginləşdirilməsinə, Avropa İttifaqının bütövlükdə Cənubi Qafqazda təhlükəsizlik və hərbi amil kimi meydana çıxmasına xidmət edir".

# MDB Hökumət Başçıları Şurasının iclası keçirildi

***Dekabrın 12-də Rusiya Federasiyasının paytaxtı Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) Hökumət Başçıları Şurasının iclası keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycanın Baş naziri Əli Əsədov iclasda iştirak edib. Baş nazir Rusiyanı cari ildə MDB-də uğurlu sədrliyi münasibətilə təbrik edib, həmçinin 2025-ci ildə quruma sədrlikdə Tacikistana uğurlar arzulayıb.

Ə.Əsədov əməkdaşlığın müxtəlif istiqamətləri, o cümlədən iqtisadiyyat, nəqliyyat və humanitar sahələr, maliyyə və büdcə məsələləri üzrə 20-yə yaxın bəndin daxil olduğu iclasın gündəliyində duran məsələlərin əhəmiyyətinə diqqət çəkib. Xüsusilə iclasın yekunu üzrə təsdiq olunacaq 2025-2026-cı illər üçün Humanitar əməkdaşlıq sahəsində Prioritet Tədbirlər Planının əhəmiyyəti qeyd edilib.

Vurğulanıb ki, 2025-ci ildə MDB çərçivəsində mühüm mədəniyyət və idman tədbirlərinin keçirilməsi planlaşdırılır və bunlara Azərbaycanda fəal hazırlıq gedir.

"Biz "Birliyin mədəniyyət paytaxtları" dövlətlərarası proqramı çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət veririk. Məlum olduğu kimi, Dövlət Başçıları Şurasının bu il oktyabrın 8-də qəbul etdiyi qərara əsasən, Azərbaycan Respublikasının Laçın şəhəri 2025-ci ildə Birliyin mədəniyyət paytaxtı elan edilib", - deyə Ə.Əsədov bildirib.

Qeyd olunub ki, işğaldan azad edil-




miş Laçın şəhəri bu gün sürətlə bərpa olunur. "Möhtəşəm təbiətə və çoxəsrli tarixə malik şəhərdə həyatın bərpasına və iqtisadi rifaha yönəlmiş irimiqyaslı infrastruktur və sosial layihələr sürətlə həyata keçirilir. "Böyük Qayıdış" proqramı çərçivəsində artıq 2 mindən çox insan Laçın şəhərinə qayıdıb, gələn il isə Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi planlaşdırılır", - deyə Baş nazir əlavə edib.

Ə.Əsədov Birliyin idman paytaxtı elan edilmiş Gəncə şəhərində gələn il keçiriləcək III MDB Oyunları barədə məlumat verib.

İclas iştirakçılarının diqqəti, eyni zamanda, bu il Azərbaycanın siyasi həyatında baş verən mühüm hadisələrə yönəldilib.

"Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq ölkənin ərazi bütövlüyünün bərpa edilməsindən sonra prezident və parlament seçkiləri onun bütün ərazisində keçirilib, bu isə tarixi hadisəyə çevrilib və keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarında təşkil olunmuş seçki məntəqələrində səs vermələrinə imkan yaradıb", - deyə Baş nazir bildirib.

Ə.Əsədov bu yaxınlarda Bakıda başa çatmış COP29 iqlim konfransının nəticələrinə də toxunub. Qeyd olunub ki, Konfransın yekunları üzrə mühüm qərarlar, o cümlədən inkişaf etməkdə olan ölkələrə iqlim maliyyələşməsinin təqdim edilməsi, eləcə də İtki və Zərər Fondunun tətbiqi ilə bağlı qərarlar qəbul edilib.

Vurğulanıb ki, Azərbaycanın sədrliyi bir daha güclü siyasi iradənin və peşəkarlığın mövcudluğunu nümayiş etdirib, bu da Azərbaycana qarşı genişmiqyaslı, əsassız kampaniyaya, hətta dünya ictimaiyyətinə belə mühüm hadisəni boykot etməyə çağırışlara baxmayaraq, Konfransın ən yüksək səviyyədə keçirilməsinə, mühüm nəticələrin əldə edilməsinə və çoxtərəfli danışıqlarda irəliləyişə nail olunmasına imkan verib.

Ə.Əsədov, həmçinin COP29 tədbirlərində fəal iştirak edən Rusiya Hökumətinin Sədri Mixail Mişustinə və MDB üzvü olan ölkələrin rəhbərliyinə təşəkkür edib.

Sonda Ə.Əsədov MDB çərçivəsində konstruktiv dialoqun davam etdirilməsinin vacibliyini vurğulayıb.

İclasın yekununda MDB-yə üzv dövlətlərin hökumət başçıları tərəfindən bir sıra sənədlər imzalanıb.



# Əhalini sevindirəcək xəbər - Yanvarın 1-dən qüvvəyə minir

***Vergi Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, Azərbaycan ərazisində istehsal olunan avtobusların satışı, habelə təsdiqedici sənəd əsasında istehsal məqsədilə avtobusların ehtiyat hissələrinin idxalı 8 il müddətində ƏDV-dən azad ediləcək.***

"Unikal" xəbər verir ki, məsələ ilə bağlı açıqlama verən Mili Məclisin deputatı Vüqar Bayramov bildirib ki, bu azadolma yerli avtobus istehsalına gətirib çıxaracaq: "Nəzərə alsaq ki, Azərbaycan yaşıl iqtisadiyyat prinsipinə uyğun olaraq avtobuslar istehsal etmək niyyətindədir və paralel olaraq da bununla bağlı dünyanın aparıcı şirkətləri ilə danışıqlar aparılıb. O zaman yeni vergi güzəştləri həmin avtobusların xərclərinin azalmasına gətirib çıxaracaq".

Deputatın sözlərinə görə, gözlənti ondan ibarətdir ki, bu güzəştlər bir tərəfdən də avtobus parkının yenilənməsinə və xidmət keyfiyyətinin yüksəlməsinə gətirib çıxaracaq: "Nəticə etibarı ilə ictimai nəqliyyatda daha keyfiyyətli xidmətin artmasını müşahidə edəcəyik. Bu güzəştlər eyni zamanda ictimai nəqliyyatda yeni qaydaların tətbiqinə imkan verəcək. Bu da ictimai nəqliyyatdan istifadə edən sərnişinlər üçün yeni imkanlar deməkdir "

Qeyd edək ki, yeni vergi güzşətləri 1 yanvar 2025-ci ildən qüvvəyə minəcək.

# Bakı böyük tədbirə ev sahibliyi edəcək

***2026-cı ildə Bakının ev sahibliyi edəcəyi Dünya Şəhərsalma Forumuna hazırlıq işləri gedir.***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev deyib.

Onun sözlərinə görə, bu tədbir COP29-dan sonra Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən təşkil olunan ikinci ən böyük tədbirdir: "Hazırda BMT-nin ixtisaslaşmış təşkilatı ilə sıx iş aparılır. Həm tədbirin təşkili, həm də inzibati məsələlərin müzakirəsi gedir. Təbii ki, tədbirin proqramı, məzmunu və iştirakçılarla bağlı hazırlıq işləri görülür. Bakı bu tədbirə 2026-cı ilin may ayında ev sahibliyi edəcək".

# DSX rəisi Yaşar Gülərlə görüşdü

***Türkiyənin milli müdafiə naziri Yaşar Gülər Azərbaycanın Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevi qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə MN-in "X" hesabında paylaşım edilib.

Qeyd edilib ki, Yaşar Gülər nazirliyə gələn general-polkovnik Elçin Quliyevi qarşılayaraq qardaş ölkənin komandanı ilə görüş keçirib.



## Türkiyənin ordu generalı Bakıda: sərhəddəki vəziyyət müzakirə edildi

***Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanda səfərdə olan Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Ziya Cemal Kadıoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan MN məlumat yayıb. Türkiyəli qonaqlar əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət ediblər.

Müdafiə Nazirliyində keçirilən görüşdə general-polkovnik Z.Həsənov qonaqları salamlayıb və onları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib.

Müdafiə naziri Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti ilə bağlı Türkiyə nümayəndə heyətini məlumatlandırıb. Ermənistanın yenidən silahlandırılmasının regionda sülhün və sabitliyin qorunmasına mənfi təsir etdiyini vurğulayıb.

Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirən nazir hərbi əməkdaşlığımızın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Qardaş ölkənin hərbi sənayesinin günü-gündən inkişaf etməsinin qürurverici məqam olduğunu bildirib.

Göstərilən səmimi qonaqpərvərliyə görə təşəkkürünü bildirən Z.C.Kadıoğlu ölkələrimiz arasında qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinə yönəldilmiş hərbi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib.

Son zamanlar dünyada baş verən münaqişələrin, müasir döyüş üsullarının birgə təhlil olunması və öyrənilməsinin zəruriliyinin xüsusi vurğulandığı görüşdə, həmçinin hərbi, hərbi-texniki əməkdaşlıq, regional təhlükəsizlik və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. 15 ildir ki, davam edən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq iclasının müsbət nəticələrindən danışılıb.

Sonra Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay qardaş ölkənin nümayəndə heyəti ilə görüşüb. Baş Qərargahda keçirilən görüşlər zamanı hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, qarşılıqlı təcrübə mübadiləsi məqsədilə birgə təlimlərin keçirilməsinin, qoşunların uyarlılığının təmin olunmasının vacibliyi qeyd edilib.

Səfər çərçivəsində türkiyəli nümayəndələr Hərbi Hava Qüvvələrində olub. Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə rəsmi qarşılanma mərasimindən sonra qonaqlarla görüşüb.

Görüşdə Azərbaycan Ordusunda həyata keçirilən islahatlardan danışılıb, peşəkar kadr hazırlığı məqsədilə hərbi təhsil sahəsində əməkdaşlığın davam etdirilməsinin zəruriliyi vurğulanıb, eləcə də birgə hərbi əlaqələrin inkişaf istiqamətlərinə dair müzakirələr aparılıb.

Türkiyəli nümayəndə heyətinə Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində görülən işlər barədə ətraflı məlumatlandırılıb.

# "Builki qiymət dəyişmələri ümumi iqtisadi artıma adekvatdır"

## Ramil Osmanlı: "Qiymətlərin optimallaşdırılması və qiymət artımına inzibati təsirlərin aradan qaldırılması istiqamətində addımlar atılmalıdır"

***Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a müsahibə verib. O, bu il paytaxtda mənzillərin qiymətinin necə dəyişdiyindən, bir neçə milyona satılan evlərə tələbatın olub-olmamasından, torpaq icarəsinə görə əldə edilən icarə haqqının ƏDV-dən azad olunmasının hansı üstünlüklərinin ola biləcəyindən və başqa məsələlərdən danışıb.***

***-Ramil müəllim, bir neçə ildir əmlak bazarında qiymətlərin sürətlə artması müşahidə olunur. Bu il Bakı şəhərində evlərin qiymətində əvvəlki illərlə müqayisədə neçə faiz artım qeydə alınıb və qiymət yüksəlməsi daha çox paytaxtın hansı ərazilərində müşahidə olunub?***

-Bu ilin doqquz ayında 7 faizdən çox artım var. Eyni zamanda, 2022-2023-cü illərlə müqayisədə artım tempi bir qədər sabitdir. Belə ki, aylıq qiymət dəyişmələri nisbi xarakter daşıyır, əvvəlki kimi dinamik deyil. Bütövlükdə, qiymət artımları davam edir. Son 3 ay üzrə göstəriciləri isə yanvarın sonlarına doğru təhlil edib yekunlaşdıracağıq. Hesab edirəm ki, builki qiymət dəyişmələri ümumi iqtisadi artıma adekvatdır. Yəni, bu hardasa 10 faiz ətrafında olacaq. Son iki ildəki kimi 25-30 faizə yaxın qiymət artımı yoxdur. Paytaxtın bütün ərazilərində qiymət artımı müşahidə olunur. Mərkəzdə qiymət artımı bir qədər azdır. Kənarlara getdikcə isə qiymətlər artır. Daha çox qiymət artımı müşahidə olunan ərazilər Əhmədli, Həzi-Aslanov, Badamdar, Yasamalın kənar əraziləri və s-dir. Bu ərazilərdə daha çox qiymət artımları müşahidə olunur. Amma şəhərin mərkəzinə doğru qiymət artımları nisbidir. Düşünürəm ki, iqtisadi təsirlər nəticəsində növbəti ildə də daşınmaz əmlak bazarında qiymət artımları builki kimi sabit olacaq.

***-Məlum olduğu kimi, Bakıda satışda dəyəri bir neçə milyon manat olan mənzillər var. Onlara tələbat varmı?***

-Tələbat bütün istiqamətlərdə ola bilər. Məsələyə tələbə çevrilmək tərəfdən baxsaq, həmin evlərə tələb azdır. Həmin mənzilləri xüsusi qruplar var ki, onlar ala bilirlər. Bu baxımdan, həmin evlərə tələbat olduqca aşağıdır.

***-Vergi Məcəlləsinə ediləcək dəyişikliklərdən biri də hüquqi şəxslər tərəfindən torpaq icarəsinə görə əldə edilən icarə haqqının ƏDV-dən azad olunmasıdır. Belə ki, gələn aydan etibarən torpaq sahələri üzrə icarə ƏDV-yə cəlb edilməyəcək. Bunun hansı üstünlüklərinin olacağını düşünürsüz?***

-Hesab edirəm ki, torpaq sahələrinin vergiyə cəlb olunması bir qədər təkmilləşdirilməlidir. Çünki icarə məbləğləri kifayət qədər yüksəkdir. Həmin böyük məbləğdə icarə haqları ilə yanaşı bura vergi rəqəmlərini də əlavə edirik. Çox böyük rəqəmlər ortaya çıxır. Bu da sahibkarlığın inkişafı istiqamətində müəyyən problemlər yaradır. Hesab edirəm ki, istər icarə qiymətinin formalaşması, istərsə də vergi məsələsinə yenidən baxılmalıdır. Təbii ki, ƏDV-yə cəlb olunmama müsbət addımdır. Amma bunun bazara əhəmiyyətli təsir edəcəyinə inanmıram. Torpaqların dövriyyəsinin artırılması, icarə istiqamətləri üzrə sahibkarlıq subyektlərinə müəyyən stimulların verilməsi yaxşı olardı. Məsələn, hansı torpaq sahələri üzrə icarə haqqı ödənilir, həmin torpaq sahələrinə vergi ödənişi ilə bağlı rəqəmlərdə müəyyən islahatlar aparılsın.

***-Demək olar ki, ölkəmizdə mənzillərin qiymətləri çox yüksəkdir. Sizcə, qiymətlərin optimallaşdırılması istiqamətində hansı addımlar atıla bilər?***



-Qiymətlərin optimallaşdırılması və qiymət artımına inzibati təsirlərin aradan qaldırılması istiqamətində addımlar atılmalıdır. Düşünürəm ki, bu istiqamətdə Vergi Məcəlləsinə olmasa da, digər istiqamətlərdə dəyişiklik ediləcək. Bu gün şəhərsalma istiqamətində hökumət daha çox inzibatçılığın mühafizəkar tərəfdən baxışını ortaya qoyur. Hesab edirəm ki, bu da doğru yanaşmadır. Ona görə ki, ötən illər ərzində çox ciddi problemlər ortaya çıxıb. Məsələn, ərazi üzrə sıxlıq əmsallarının, şəhərsalma tələblərinin kobud şəkildə pozulması halları baş verib. Bir binanın tikilməli olduğu yerdə 5 bina tikilib, yollar zəbt olunub və s. Ona görə hesab edirəm ki, mühafizəkar yanaşmanın arxasında bir qədər bu məsələlər dayanır.

***-Sənədsiz evlərin qeydiyyata alınması da insanları ən çox narahat edən məsələlərdəndir. Bunun yaxın vaxtlarda həll olunacağı gözlənilirmi?***

-Düşünürəm ki, ilin sonu və ya bu ilin əvvəlində bu istiqamətdə qərar qəbul olunacaq. Bu məsələ gözlənilir. Sənədsiz evlərin qeydiyyatı məsələsi uzun illərdən bəri fərdi yaşayış evləri ilə bağlı yığılıb qalmış problemin həlli istiqamətində çox ciddi təsiri olacaq. Bura vətəndaşın qeydiyyatı, əhalinin müəyyən istiqamətlər üzrə hüquqlarının təminatı və s. aiddir. Eyni zamanda, bələdiyyə vergilərinin, mənzil alqı-satqısının rəsmiləşdirilməsi zamanı əqdlərin aparılmasına görə ödənilən rüsumlar, vergilər və s. məsələləri qeyd edə bilərik. Bunun bir çox müsbət tərəfləri olacaq.

***Anar Kəlbiyev***

# Cavanşir Feyziyevin şirkəti ətrafında müəmma

## Başı cərimə və məhkəmə qalmaqallarından açılmayan "Avromed"lə deputat arasında doğrudanmı heç bir bağ qalmayıb?



***"Avromed Company" Qapalı Səhmdar Cəmiyyəti (QSC) barəsində cərimə protokolu yazılıb.***

Dərman şirkəti barəsində İnzibati Xətalar Məcəlləsinin 548.2-ci (Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan məlumatların həmin orqanın tələbi ilə maliyyə bazarlarında nəzarət edilən subyekt və emitent tərəfindən təqdim edilməməsinə və ya təhrif olunmuş məlumatın verilməsinə görə) maddəsi ilə inzibati protokol tərtib olunub (Qaynarinfo).

İşə Nəsimi Rayon Məhkəməsinin hakimi Babək Pənahovun sədrliyi ilə baxılacaq.

Protokol təsdiq olunsa, "Avromed Company" QSC 1500 manatdan 2000 manatadək məbləğdə cərimə edilə bilər.

Bu, 2024-cü ildə adı çəkilən şirkətlə bağlı növbəti məhkəmə işlərindən biridir. Belə ki, bir neçə ay öncə "Avromed Company" ilə Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikası arasında qalmaqal yaranmışdı.

Həmin vaxt yerli media yazırdı ki, qalmaqalın kökündə tərəflər arasındakı alqı-satqı müqaviləsinə dair mübahisə dayanır. Belə ki, həmin QSC sözügedən klinikaya tibb məhsulları satıb. Lakin pulun ödənilməsində problem yaranmış və bu mübahisəyə çevrilmiş, məhkəməyədək uzanmışdı.

Oktyabrda isə "Avromed Company" QSC barəsində gömrük qaydalarının pozulması (mallar və nəqliyyat vasitələri gətirilərkən və ya aparılarkən müvafiq icra hakimiyyəti orqanına məlumat verilməməsi və ya təhrif olunmuş məlumatın verilməsi, yaxud əvvəlcədən qısa idxal bəyannaməsinin təqdim edilməməsi) ilə bağlı növbəti inzibati xəta protokolu tərtib olunmuşdu.

Protokol İnzibati Xətalar Məcəlləsinin 485.2-ci maddəsinə əsasən hazırlanmışdı.

İnzibati Xətalar Məcəlləsinin 485.2-ci maddəsinə görə, Gömrük Məcəlləsi ilə müəyyən edilmiş hallarda qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada təqdim edilməməsinə görə vəzifəli şəxslər 1,000 manat, hüquqi şəxslər isə 1,500 manat cərimə edilir.

Qeyd edək ki, "Avromed Company" QSC 20 dekabr 2001-ci ildə qeydiyyata alınıb.

Nizamnamə kapitalı 57 000 AZN-dir. Şirkətin qanuni təmsilçisi İskəndərov Kamran İnqilab oğludur.

Kamran İskəndərov "Coca Cola" şirkətinin Ukrayna və Moldova üzrə nümayəndəliyinin baş meneceri vəzifəsində işləyib. 2022-ci ildən isə "Avromed Company"nin baş direktorudur.

Lakin mediada gedən məlumatlara görə, şirkətin sahibi Milli Məclisin deputatı Cavanşir Feyziyevdir. Cavanşir Feyziyevin tərcüməyi halında qeyd edilib ki, o, 2002-2010-cu illərdə QSC-nin baş direktoru vəzifəsində işləyib.

Buna rəğmən, deputat 2013-cü ildə İngiltərəyə səfər etmək üçün viza müraciəti zamanı özünü "Avromed Company" QSC-nin baş direktoru kimi təqdim edib. Bu barədə İngiltərədə Cavanşir Feyziyevin ailəsinə məxsus 5.6 milyon funt-sterlinqin müsadirə olunması ilə bağlı materiallarda bildirilir.

Koronavirus pandemiyasının başladığı ilk vaxtlarda - 2020-ci ilin aprelində apteklərdə tibbi maskaların qəhətə çıxması və yüksək qiymətə satılması mətbuatda tənqid hədəfinə çevrilmiş, cəmiyyətdə isə narazılıq yaratmışdı. Həmin vaxt bu məsələdə "Avromed Company" də ittiham olunurdu. Həmin vaxt bununla bağlı yerli KİV-lərdən biri Cavanşir Feyziyevin münasibətini öyrənmək istəmişdi. Deputat isə deyilənlərə emosional və qətiyyətli reaksiya vermişdi: "Bəli, vaxtında mən Azərbaycanda "Avromed" farmatevtik şirkətini yaratmışdım, amma 2010-cu ildə deputat seçildikdən sonra icraçı direktor postunu tərk etdim, 2016-cı ildə isə ümumiyyətlə, şirkətin bütün aksiyalarını satdım. Yəni, "Avromed"-ə son 5 ildə heç bir aidiyyatım yoxdur. Amma KİV-də şirkətin müxtəlif problemləri, indi də maskaların defisiti ilə bağlı addımı hallandırırlar. Bu bəzi KİV nümayəndələrinin qərəzli yanaşmasından xəbər verir".

Xatırladaq ki, Feyziyev ilk dəfə 2015-ci ildə keçirilən parlament seçkilərində V çağırış Milli Məclisin deputatı olub. Yəni onun açıqlamasından adı çəkilən şirkətlə hüquqi bağlarını məhz deputat seçildikdən sonra kəsdiyi aydınlaşır. Görünür, bu, qanunvericiliyin tələbi ilə bağlıdır. Belə ki, ölkə qanunları Milli Məclis deputatlarının, eyni zamanda dövlət qulluğunda çalışan məmurların bizneslə məşğul olmasını qadağan edir. Bizneslə məşğul olub sonradan vəzifəyə təyinat, yaxud parlamentə mandat alan şəxslər bu missiyaları yaxın adamlarına, övladlarına, qardaşlarına və s. ötürürlər. Bununla da rəsmi sənədlərdə artıq heç bir biznes fəaliyyəti ilə məşğul olmadıqları təəssüratı yaranır. Faktiki olaraq isə onlar öz biznes imperiyalarına himayədarlığı davam etdirirlər.

Eyni vəziyyətin Feyziyevlə "Avromed Company" müstəvisində də yaşandığını asanlıqla təxmin etmək mümkündür.

***Toğrul Əliyev***

# "Seçkilərə 3 minə yaxın şəxs namizədliyini irəli sürüb" - MSK sədri



***"Bələdiyyə seçkilərinə hazırlıq Təqvim Planına uyğun olaraq həyata keçirilir. Artıq yerlərdə namizədlər irəli sürülüb".***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib.

Onun sözlərinə görə, bələdiyyə seçkilərində indiyədək 3 minə yaxın şəxsin namizədliyi irəli sürülüb və onların qeydə alınması mərhələsi gedir.

MSK sədri qeyd edib ki, ölkə üzrə 685 bələdiyyəyə 8071 bələdiyyə üzvü seçiləcək: "Yerlərdə namizədlərin irəli sürülməsi prosesi də davam edir. Onların qeydiyyatı prosesinə artıq başlanılıb. Mərkəzi Seçki Komissiyası daim bu prosesi nəzarətdə saxlayır. İndiyədək hansısa xoşagəlməz hal ilə bağlı hər hansı müraciət daxil olmayıb".

# Hikmət Hacıyev Azərbaycan-Ermənistan normallaşma prosesindən danışıb



***Azərbaycan və Ermənistan Xarici İşlər nazirlikləri arasında müzakirələr aparılır.***

Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında deyib.

Hikmət Hacıyevin sözlərinə görə, iki ölkə arasında açıq qalan müəyyən məsələlər var ki, onlara da işçi qaydada baxılmaqdadır. Prezidentin köməkçisi artıq iki ölkə arasında müharibə faktorunun qalmadığını diqqətə çatdırıb.

"Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini tam şəkildə təmin edib. Ermənistan işğalçı qüvvələri də Azərbaycan ərazisindən çıxarılıb", - Hikmət Hacıyev əlavə edib.

# Rəsmi Bakı Ermənistandan Konstitusiyasına dəyişikliklə bağlı qətiyyətli addımlar gözləyir

***Azərbaycan ictimaiyyətinə yaxşı məlumdur ki, Ermənistan Konstitusiyasında ölkəmizə qarşı ərazi iddiaları var.***

Bunu xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında deyib. "Bununla bağlı Ermənistandan qətiyyətli addımlar gözləyirik. Son zamanlar bizim Ermənistan tərəfindən eşitdiyimiz arqumentlər isə bizi qane edə bilməz. Bu yaxınlarda Ermənistan Konstitusiya Məhkəməsinin növbəti qərarı bu işi daha da mürəkkəbləşdirib. Digər sözlə, qərarda Ermənistan Konstitusiyasının preambulasının dəyişməz olduğu, xüsusi olaraq preambulaya toxunmağın mümkün olmaması qeyd edilib. Bu, məsələni daha da mürəkkəbləşdirir. Çünki preambulada Ermənistan Müstəqillik Aktına istinad var və o sənəd də Azərbaycanın ərazi bütövlüyü və suverenliyini pozur. Bu qərar vəziyyəti daha da mürəkkəbləşdirir".

# Əli Əsədov Moskva Dövlət Texniki Universitetində olub

***Moskvaya işgüzar səfəri çərçivəsində Baş nazir Əli Əsədov və MDB-yə üzv ölkələrin digər nümayəndə heyətlərinin rəhbərləri N.E. Bauman adına Moskva Dövlət Texniki Universitetinin kampusunda olublar.***

"Unikal" xəbər verir ki, burada hökumət başçılarına MDB ölkələrindən Moskva universitetlərində təhsil alan tələbələrin birgə mühəndis layihələrinin təqdimatı keçirilib.

Azərbaycanlı tələbə Vüsal Məhərrəmovun da daxil olduğu qrup "Xəzərin orbiti" layihəsini təqdim edib. Bu layihənin məqsədi Xəzərin ekoloji problemlərinin kosmik monitorinq texnologiyalarının işlənməsidir.

Baş nazir Əli Əsədov azərbaycanlı tələbənin daxil olduğu qrupun təqdimatını yüksək qiymətləndirib və Vüsal Məhərrəmova təhsilində uğurlar arzulayıb.

# Azərbaycanda bəzi məktəblər bağlanacaq? - Nazirdən açıqlama



***"Azərbaycanda məktəblərdə müəllim çatışmazlığı yoxdur".***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında elm və təhsil naziri Emin Əmrullayev deyib.

Nazir bildirib ki, ölkəmizdə 4500-ə yaxın məktəb binası var: "İstismar müddəti başa çatmış məktəblərlə bağlı iş hər il davam etdirilir. Mərhələli şəkildə bu iş bitəcək. Eyni zamanda azad edilmiş ərazilərdə də yeni məktəblər tikilir.

Məktəblərin bağlanmasından söhbət gedə bilməz. Sadəcə elə məktəblər var ki, cəmi 2-3 şagirdi var. Həmin şagirlərin keyfiyyətli təhsil alması üçün bəzi məktəblər birləşdirilir".

***Anar Kəlbiyev***

# 7 ildə Azərbaycanda cəmi 3 plastik cərrah məzun olub

***Son dövrlər Azərbaycanda saxta plastik cərrahlar gündəmin ən çox müzakirə edilən məsələlərindən biridir. Ötən ay Azərbaycanda 50-ə yaxın saxta plastik cərrahın olması ilə bağlı xəbərlər yayılıb.***



Məsələyə hüquq-mühafizə orqanları da qarışıb. Faktlarla bağlı dövlət qurumları tərəfindən araşdırma aparılır.

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, bu ilin əvvəlində Azərbaycanda 3498 cərrah olub. Onların neçəsinin plastik cərrah olduğu məlum deyil. Bununla bağlı statistika aparılmayıb.

Ancaq son illər estetik cərrahiyyəyə olan tələbatın artması fonunda plastik cərrahların da sayında artım müşahidə edilir.

Estetik cərrahiyyəyə olan tələbatın artması bu sahədə təhsilə də marağı artırıb. 2017-cü ildən rezidentura səviyyəsində tədris olunan ixtisasların təsnifatına plastik cərrahiyyə də əlavə edilib. Nazirlər Kabinetinin bu ilin dekabr ayında təsdiqlədiyi yeni təsnifatda isə ixtisasın adı dəyişdirilərək "plastik, rekonstruktiv və estetik cərrahiyyə" qoyulub. Plastik cərrahiyyə üçün sahib olmaq istəyən rezidentlər 5 il təhsil almalıdırlar.

2017-ci ildən bu yana Azərbaycanda plastik cərrahiyyə ixtisası üzrə cəmi 3 nəfər məzun olub.

Məlumata görə, hazırda bu ixtisas üzrə 7 nəfər təhsilini davam etdirir.

Xaricdə tibb təhsili alan həkimlərin neçəsinin plastik cərrahiyyə üzrə ixtisaslaşdığı məlum deyil. Qeyd edək ki, qanunvericiliyə əsasən, Azərbaycanda tibb işçiləri praktiki tibb fəaliyyəti ilə məşğul olması üçün sertifikasiya imtahanına cəlb olunmalıdırlar. Tibb işçiləri sertifikasiya şəhadətnaməsi əldə etdikdən sonra respublika ərazisində tibb fəaliyyəti ilə məşğul olmaq hüququ qazanırlar.

# Ən çox əməkhaqqını onlar alır

***2024-cü il noyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1773,3 min nəfər olub.***

"Unikal" Dövlət Statistika Komitəsinə (DSK) istinadən xəbər verir ki, onlardan 881,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 891,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

2024-cü ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,8 faiz artaraq 993,2 manat təşkil edib.

İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

# Məmurların 1 milyon manatlıq yeyintisinin pərdəarxası

## Şirkətlərlə əlbir olub külli miqdarda dövlət vəsaitini mənimsəyənlərə kimlər və nə üçün göz yumublar?

***Yola salmaq üzrə olduğumuz həftə daha bir ciddi korrupsiya faktının üstü açıldı. Məlum oldu ki, cinayət yolu ilə pul qazanmaq məqsədilə yaradılmış 299 sayda şirkətin rəhbərlərindən biri - axtarışda olan musiqiçi həbs edilib.***

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, 37 yaşlı Yasin Əhmədov adına rəsmiləşdirilmiş şirkətlər vasitəsilə xüsusilə külli miqdarda dövlət vəsaitinin yeyintisində iştirakda ittiham edilir.

Maliyyə Monitorinqi Mərkəzinin izləmələri ilə şirkətlərin şübhəli əməliyyatlar apardığı üzə çıxıb. Məlum olub ki, Yasin Əhmədov və əlbir olduğu digər şəxslərin adına olan şirkətlər ölkə xarici və daxildəki müəyyən hesablara milyonlarla pul köçürüb. Pullar xaricə guya hansısa xidməti avadanlıqların alınması üçün köçürülsə də, heç bir alış-veriş aparılmayıb. Yeganə məqsəd cinayət yolu ilə qazanılmış pulları leqallaşdırmaq olub.



Cinayətdə adı hallanan Yasin bu prosesə qoşulana kimi incəsənətlə məşğul olub, ona sözügedən iş üzrə nisbətən kiçik fiqur da demək olar. Elə toy danışığı zamanı müştərilərdən biri ona belə bir işə qoşulmağı təklif edib. Musiqiçi ilə razılaşma belə olub ki, adına şirkətlər yaradılacaq, o, əziyyət çəkmədən hər mədaxil nəticəsində pul qazanacaq. Yasini bu işə cəlb edən daha böyük "baş"lar var. Onlar da istintaqa cəlb edilib, həbsdədirlər.

Hazırkı təqsirləndirilən şəxsi ona görə nisbətən kiçik fiqur adlandırırıq ki, onun qazancı hər köçürülən məbləğdən cəmi 200-300 manat olub. Məsələn, dövlət qurumlarının birindən 20 min manat pul köçürülübsə, oradan Yasinə 200-300 manat çatıb. O, istintaq müddətində özünü qismən təqsirli bilib.

Y.Əhmədov barəsində bu ilin iyulunda Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsində 179.4-cü (mənimsəmə-xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanıb. Həmin vaxt Yasin istintaqdan gizlənib, bu səbəbdən axtarışa verilib. O, bir neçə gün əvvəl tutulub, barəsində 2025-ci ilin yanvarın sonuna kimi həbs qətimkan tədbiri seçilib.

İstintaq cinayət məqsədilə istifadə edilən şirkətlərin hansı vəzifəli şəxslərlə iş gördüyünü üzə çıxarıb.

Süni şəkildə tenderlərdə qalib gələn şirkətlərə pul köçürüb mənimsəmə edən həmin şəxslərin adları istintaq materiallarında yer alıb:

- "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədrinin köməkçisi Abdullayev Samir Ramiz oğlu;
- "Ə.Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanası"nın baş həkimi Xudiyev Azər Mənaf oğlu;
- "Bakı şəhər Baş Səhiyyə İdarəsinin Təcili Yardım Avtobaza"sının direktoru Məmmədov Yaqub Şəmsi oğlu;
- "Abşeron Regional Elektrik Şəbəkəsi" MMC-nin direktoru Vəliyev Elman İsrafil oğlu;
- "Xızı rayon Şorabad bələdiyyəsi"nin sədri İsmayılov Fazil Şükür oğlu;
- "Dəmiryolservis" MMC-nin sabiq direktoru Lütfəlibəyov Əli Əşrəf Orxan oğlu;
- "5 saylı İxtisaslaşdırılmış Dəmir Yolu Müəssisəsi" MMC-nin sabiq baş mühəndisi Sadıqov İsmayıl Lətif oğlu;
- "Bakı Xareoqrafiya Akademiyası"nın sabiq baş mühasibi Əzimov Sahib Şakir oğlu.

Adları keçən şəxslər xidmət göstərilməsi üçün 299 şirkətə dəyərindən artıq dövlət vəsaiti köçürüblər. Ümumilikdə qurumlardan 5 milyondan artıq pul köçürülüb, onun 1 milyondan bir qədər çox hissəsi sahibkarlarla köçürmə edən vəzifəlilər arasında bölüşdürülüb.

Məsələn, qurumlardan biri iki il ərzində mal-materiallar alınması üçün şirkətlərə dəyərindən 160 min manat artıq pul köçürüb.

Korrupsiya cinayətlərində əsas məqsəd dövlətə dəymiş ziyanın ödənilməsidir. Bu əsasla adları çəkilən vəzifəlilərin hamısına vurduqları ziyan tam ödətdirilib. Həmçinin cinayət məsuliyyətindən azad olunmaları üçün vurduqları ziyanın 25-50 faizi miqdarında dövlət büdcəsinə ödəniş də edilib. Bu səbəbdən qanunun müddəasına əsasən, onlar barəsindəki xüsusilə külli miqdarda mənimsəmə cinayətinə bəraətverici əsaslar olmadan xitam verilib.

Musiqiçi şirkət rəhbərinə gəlincə, o, əməlinə görə hələ mühakimə ediləcək.

İndi isə bir az əvvəl yazılanlardan diqqətçəkən bir məqamın üzərinə qayıdaq. Məlumatda adı keçən və haqlı şəkildə "kiçik fiqur" adlandırılan Yasin Əhmədovu korrupsiya cinayətinə cəlb edən daha böyük "baş"ların olduğu və onların da istintaqa cəlb edildiyi, həbsə atıldığı vurğulanır. Lakin süni şəkildə tenderlərdə qalib gələn şirkətlərə pul köçürüb mənimsəmə edən şəxslərin yuxarıdakı siyahısına göz atdıqda onların da "kiçik fiqurlar" olduğu aydınlaşır. Həmin korrupsiya faktlarına görə də böyük "başların" hüquqi məsuliyyətə cəlb edildiyi aydın deyil. Əgər onlar da istintaqa cəlb olunmayıblarsa, həbsə atılmayıblarsa buna məntiqi izah tapmaq çətindir. Adları çəkilən "kiçik fiqurlar" çetin ki, çalışdıqları qurumların rəhbər şəxslərindən xəbərsiz bu qədər böyük məbləğdə yeyintiyə yol versinlər.

Üstəlik, məlumatdan da göründüyü kimi, haqqında bəhs olunan korrupsiya halları Maliyyə Monitorinqi Mərkəzinin izləmələri sayəsində aşkarlanıb. Bəs mənimsəmələrin baş verdiyi qurumların yüksək vəzifəli şəxsləri bu hallardan necə xəbərsiz olublar? Axı söhbət yüz minlərlə manatdan gedir.

Sonda onu da vurğulayaq ki, axır illərdə ölkədə məmurlara qarşı antikorrupsiya əməliyyatları xeyli gücləndirilib, aralarında nazirlərin, nazir müavinlərinin, icra başçılarının da olduğu çox sayda vəzifəli şəxs həbsə atılıb. Lakin hələ də bir sıra məmurların yeyintidən, mənimsəmədən çəkinməməsi maraq doğurur. Bunun səbəbləri barədə növbəti sayımızda ətraflı yazacağıq, odur ki, bizi izləyin...

***Sənan Mirzə***

# Sabiq deputatın şirkəti ilə bağlı tender qalmaqalı

## 1,3 milyon manat vergi borcu olan MMC satınalma müsabiqəsində necə qalib olub?

***Şabran Rayon Yaşıllıq və Təmizlik İdarəsi "Kaspi-Yıldız" MMC ilə satınalma müqaviləsi bağlayıb. Yerli KİV-in məlumatına görə, şirkət idarənin zibil qablarının satın alınması ilə bağlı keçirdiyi kotirovka sorğusunun qalibi olub. Satınalma müqaviləsinin maliyyə dəyəri 13 546,4 manatdır.***

"Kaspi-Yıldız" MMC 7 sentyabr 2005-ci ildə dövlət qeydiyyatına alınıb. Nizamnamə kapitalı 10 manat olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Nizami rayonu, Özbəkistan küçəsi, ev 24-də yerləşir.

"Kaspi-Yıldız" MMC-nin qanuni təmsilçisi Əliyev Camaləddin Məzahir oğludur. Şirkətin əsl sahibi isə keçmiş deputat İqbal Məmmədovdur. O, 2010-cu ilə qədər şirkətə rəhbərlik edib. Həmin il deputat seçildikdən sonra isə "Kaspi-Yıldız"ın rəhbərliyi keçmiş deputatın qardaşı Çingiz Məmmədova keçib.

"Kaspi-Yıldız" MMC ilə eyni hüquqi ünvanda "Kaspi-Yıldız" Azərbaycan-Türkiyə Müştərək Müəssisəsi də yerləşir. Bu şirkət də İqbal Məmmədova məxsusdur.

"Kaspi-Yıldız" Azərbaycan-Türkiyə Müştərək Müəssisəsinin hazırda 1 301 957, 92 manat vergi borcu var.

İqbal Məmmədov Milli Məclisin IV, V və VI çağırış deputatı olub. O, parlamentdə 78 saylı Lerik seçki dairəsini təmsil edib.

Bir neçə il əvvəl İqbal Məmmədov Lerikdə fəaliyyət göstərən "Relax" İstirahət Kompleksində baş verən qalmaqalla gündəmə gəlmişdi. Məlumat üçün deyək ki, "Relax" da keçmiş deputata məxsusdur. 2019-cu ildə vergi əməkdaşları obyektdə yoxlama aparmağa gələndə də, İqbal Məmmədovun oğlu Mirhəmid Nərimanlı, qardaşı oğlu Orxan Nərimanlı və bacısı oğlu Pərviz onları döymüşdü.

Sentyabrda isə sabiq deputata məxsus başqa bir şirkətin də yoxlamalara mane olduğu aydınlaşmışdı. Həmin vaxt yayılan məlumatda bildirilirdi ki, "Lerik Broyler" MMC barəsində inzibati iş başlanıb. Şirkət İnzibati Xətalar Məcəlləsinin 602.-4-cü (Sahibkar tərəfindən yoxlama prosesində yoxlamaya aid sənədlərin yoxlayıcıya təqdim edilməməsinə, yoxlama zamanı yaranan suallara şifahi və (və ya) yazılı izahatlar verilməməsinə, təhrif olunmuş, yanlış məlumatın verilməsinə və ya sahibkarlıq fəaliyyəti üçün istifadə olunan əraziyə, istehsal və emal müəssisələrinə, anbarlara, satış sahələrinə, nəqliyyat vasitələrinə, habelə sahibkarlıq fəaliyyəti üçün istifadə olunan digər yerlərə baxış keçirilməsinə mane olma) maddəsi ilə ittiham edilib. Bu maddəyə əsasən, vəzifəli şəxslər 1000 manatdan 1500 manatadək məbləğdə cərimə edilir.

"Lerik Broyler" MMC-yə öncə İqbal Məmmədovun qardaşı Çingiz Məmmədov, daha sonra isə sabiq deputatın oğlu Orxan Nərimanlı rəhbərlik edib.

İndi isə keçmiş millət vəkilinin başqa bir şirkətinin nə az, nə çox, düz 1,3 milyon manatlıq vergi borcunun olduğu aydınlaşır. Yoxlamalara mane ol, hətta vergi əməkdaşlarına zorakılıq et, sonra da dövlətə milyonlarla manatlıq vegi borcunun olduğu ortaya çıxsın, əcəb paradoksdur, elə deyilmi?!

Digər tərəfdən, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunun 6.2.5-ci maddəsinə əsasən, hər hansı tenderdə qalib şirkətin Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olmamalıdır. Belədə Şabran Rayon Yaşıllıq və Təmizlik İdarəsinin hansı əsasla sabiq deputata məxsus "Kaspi-Yıldız" MMC ilə satınalma müqaviləsi bağladığı sual doğurur.



Yeri gəlmişkən onu da deyək ki, Milli Məclisin keçmiş üzvünün şirkətinin İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə əslində 10 milyon manata yaxın borcu yaranıb. Lakin İqbal Məmmədov öz namizədliyini irəli sürmədiyi builki parlament seçkilərindən sonra həmin borcun 8 milyon 123 min 438 manat 13 qəpiyini ödəyib. Media iddia edib ki, deputat seçilmədiyinə görə cinayət məsuliyyətindən azad edilməsi üçün 9 milyon 393 min 819 manat 13 qəpik vergi borcunun böyük hissəsini ödəmək məcburiyyətində qalıb. "Hazırda sabiq deputata məxsus olan şirkətin 1 milyon 270 min 381 manat 90 qəpik vergi borcu qalıb. O, bu ilin sonuna qədər sözügedən borcu da ödəyəcəyinə söz verib" deyə bu ilin oktyabrında ölkə mediası yazmışdı.

Araşdırmalarımız zamanı o da aydınlaşıb ki, İqbal Məmmədovun adı çəkilən şirkəti hətta 10 milyon manata yaxın vergi borcu olarkən də bir sıra tenderləri udub. Məsələn, 2022-ci ildə artıq ləğv edilmiş "Azərsu" ASC tərəfindən keçirilən tender müsabiqəsinin (Açıq tender) qalibi də "Kaspi-Yıldız" MMC olmuşdu. Həmin vaxt bildirilirdi ki, şirkət sözügedən dövlət qurumuna 43 min 801 manat 60 qəpik dəyərində yüksək təzyiqli şlanqlar satacaq.

Xatırladaq ki, 59 yaşlı İqbal Məmmədov Milli Məclisin IV çağırış (2010-2015), V çağırış (2015-2020) və VI çağırış (2020-2024) üzvü olub. O, hər üç seçkidə 78 saylı Lerik seçki dairəsindən deputat mandatı qazanmışdı.

***Toğrul Əliyev***

# YAP-ın nümayəndələri Heydər Əliyevin xatirəsini yad ediblər



***Dekabrın 12-də müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.***

"Unikal" xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# "Gələn il Astara terminalının inşası tam yekunlaşacaq" - ADY sədri



***Orta Dəhliz üzrə yükdaşımaları 100 % yaşıl enerji ilə təmin ediləcək.***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov deyib.

"Dekarbonizasiya ilə bağlı bizim Asiya İnkişaf Bankı ilə layihəmiz həyata keçirilir. Bu günlərdə Asiya İnkişaf Bankının missiyası Bakıda idi. Dekarbonizasiya istiqamətində dəmir yollarına əlavə qrant ayırılmasına dair ilkin olaraq razılıqlarını bildiriblər. Bununla da biz demək olar ki, Orta Dəhliz üzrə yükləri 100 % yaşıl enerji ilə daşınmasını təmin etmiş olacağıq", - deyə R.Rüstəmov bildirib.

O qeyd edib ki, "Şimal-Cənub" layihəsi ilə bağlı Rusiya və İran dəmir yolları ilə görüşlər olub:

"Keçən ay Daşkənddə Rusiya dəmir yolları qurumunun rəhbəri ilə görüşəndə də bu məsələ ətrafında müzakirələr apardıq. Növbəti il yalnız Şimal-Cənub deyil, həm də Cənub-Şimal istiqamətində də yük daşımaları planlaşdırılıb. Gələn həftə İran dəmir yollarının rəhbəri ilə görüşümüz gözlənilir. Ötən ay İranda olarkən qəbul etdiyimiz fəaliyyət planına uyğun olaraq, Astara terminalında işlərin yekunlaşdırılması üzərində çalışırıq. Fəaliyyət planına görə, gələn il artıq Astara terminalı tam yekunlaşacaq və bu istiqamətdə bizim yükaşırma qabiliyyətimiz 4 milyon tona çatmış olacaq".

# Yaxın günlərdə qatarlarda SİMA ilə ödənişlərə başlanılır



***"Noyabrın 1-dən dinamik tarif siyasətinə keçilib. Biz noyabrda bu dinamikanı izlədik. Statistikaya əsasən, sərnişinlərimizin 50%-i biletlərini səfərlərinə 3-10 gün qalmış, 20%-i isə son 3 gün qalmış əldə edirlər".***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbəri Rövşən Rüstəmov deyib.

ADY sədri bildirib ki, 70% sərnişinimiz yalnız son 10 gündə səfərlərini planlaşdırır: "Tövsiyə edərdik ki, səfərlərini öncədən planlaşdırsınlar və bizim 15%-lik endirimimizdən faydalansınlar".

Onun sözlərinə görə, sərnişindaşıma ilə bağlı digər yenilik isə odur ki, artıq dəmir yolu infrastrukturuna məsafə başına ödənişlər həyata keçirilir: "Səfər edilən məsafəyə uyğun olaraq ödəniş aparılır. Bu günlərdə son test mərhələsindəyik. SİMA ödəniş sistemi artıq bir neçə dəmir yolu stansiyasında test mərhələsindədir. Bu, o deməkdir ki, yaxın günlərdə sərnişinlərimiz heç bir təmas olmadan platformalarda, turniketlərdə SİMA tanınma sistemindən istifadə edə biləcəklər".

44_27 IYUI-QARA.qxd 12/12/2024 10:05 PM Page 11



# Xocalıya növbəti köç olacaq



***Xocalı rayonunun Ballıca kəndinə ilk köç olacaq.***

Modern.az-ın məlumatına görə, köç sabah, dekabrın 13-də baş tutacaq.

Ölkənin müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşan keçmiş məcburi köçkünlər kəndə yola salınacaq.

Qeyd edək ki, Ballıca kəndi 1992-ci ildə Ermənistan ordusu tərəfindən işğal edilib. Kənd 19-20 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatı nəticəsində azad olunub.

Xatırladaq ki, bundan əvvəl may ayında 24 ailə - 88 nəfər Xocalıya köçürülüb.

# "Kartdan karta" üsulu ilə işləyən daha 467 sahibkar cəzalandırıldı



***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakıda iaşə və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan daha 467 vergi ödəyicisinə maliyyə sanksiyaları tətbiq edib.***

"Unikal" xəbər verir ki, həmin obyektlərdə istehlakçılara nağdsız ödənişlər üçün "kartdan-karta" köçürmələrin təklif edildiyi, bəzi hallarda isə POS-terminalların qeydiyyat ünvanı üzrə istifadə olunmadığı aşkarlanıb. Həmin sahibkarlıq subyektləri ilə bağlı protokollar tərtib olunub və maliyyə sanksiyalarının tətbiqi barədə qərarlar qəbul edilib.

"Nağdsız vəsaitin qəbulu yalnız POS-terminal vasitəsilə həyata keçirilməli və bu zaman vətəndaşlara POS-terminalın qəbzi ilə yanaşı nəzarət-kassa aparatının çeki də təqdim edilməlidir. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanuna uyğun olaraq POS-terminalların quraşdırılması, "Elektron ticarət haqqında" Qanuna əsasən isə istehlakçıların elektron ödəniş etmək imkanının yaradılması vergi ödəyicilərinin birbaşa vəzifələrinə aiddir", - deyə məlumatda qeyd olunub.

# Nazir müavini qazlaşma ilə bağlı son vəziyyəti açıqladı



***Azərbaycanda elektrikləşmə, demək olar ki, 100%-dir. Təbii qazla təmin olunma isə 96%-dir.***

Bunu Modern.az-a açıqlamasında energetika nazirinin müavini Elnur Soltanov bildirib.

O qeyd edib ki, bütün dünya üzrə göstəricilərə diqqər yetirsək, bu kimi rəqəmləri inkişaf etmiş ölkələrdə tapmaq çətindir.

"Bəzən problemin həll edilməsi üçün çox vəsait lazım olur. Bu vəsait başqa mənbələrdən, bəlkə də sosial siyasətə xidmət edən mənbələrdən ola bilər. Dilemma da burada yaranır. Ucqar bir dağ kəndinin qazlaşdırılması üçün lazım olan vəsaitlə yeni bir kənd sala bilərsiniz. Belə məsələləri həll etmək lazımdır",-nazir müavini deyib.

# Ağdamda Avtovağzal Kompleksi bu tarixdə istifadəyə veriləcək

***Ağdamda Dəmir yolu və Avtovağzal Kompleksi növbət ilin avqust ayına qədər istifadəyə veriləcək.***

Bunu "Azərbaycan Dəmir Yolları" (ADY) QSC-nin sədri Rövşən Rüstəmov jurnalistlərə məlumat verib.

"Bərdə-Ağdam layihəsində yol artıq tamamlanıb. Hazırda Ağdamda Dəmir yolu və Avtovağzal Kompleksinin tikintisi həyata keçirilir. Növbəti ilin avqust ayına qədər kompleksin tamamlanması gözlənilir", - sədr vurğulayıb.

# Həbsdəki məşhur bankirin gizlinləri açılır

## Nadir İsmayılova xaricdəki milyonlarla manatlıq hesabı ilə bağlı böyük şok... - Yeni "Cahangir Hacıyev vaqeəsi"?!

***Səkkiz il əvvəl fəaliyyəti dayandırılmış "Zaminbank" ASC-nin 10 il həbs cəzasına məhkum edilmiş sədri Nadir İsmayılovun Böyük Britaniyadakı bank hesabında 2.5 milyon funt-sterlinq (5,4 milyon AZN) pul olduğu müəyyən edilib. Bu barədə "Qafqazinfo" məlumatlı mənbəyə əsasən xəbər verib.***

Azərbaycanın Maliyyə Monitorinqi Mərkəzi belə bir hesabın olduğunu öyrənib və aidiyyəti üzrə məlumat verib. Xətai rayonu icra şöbəsi isə həmin hesaba həbs qoyulması üçün məhkəməyə təqdimat verib.

Qeyd edək ki, N.İsmayılov 2004-2016-cı illərdə "Zaminbank"ın sədri olub. Külli miqdarda mənimsəmə ittihamı ilə 2020-ci ildə həbs edilib. N.İsmayılov Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq), 179.3.2 (mənimsəmə), 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə) və 320.2-ci (bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham olunub.

Məhkəmə araşdırması zamanı məlum olub ki, sabiq bankir 72.3 milyon manatı qulluq mövqeyindən istifadə edərək mənimsəyib. 5 milyon manatı isə dələduzluq yolu ilə ələ keçirib. Cinayət işinin materiallarına görə, "Zaminbank"ın bu günə olan cəmi öhdəlikləri 175 milyon manata yaxındır. Bu məbləğin 84,5 milyon manatı Mərkəzi Bank qarşısındadır. Bu səbəbdən onun Bakının müxtəlif ərazilərində olan daşınmaz obyektləri, o cümlədən lüks avtomobilləri müsadirə edilmişdi.

Aşağıda məhkəmənin hökmü ilə Nadir İsmayılovun üzərinə həbs qoyulan əmlaklarının siyahısını təqdim edirik:

- Nəsimi rayonu, Mərdanov Qardaşları küçəsi, ev 117B, mənzil 42 və 43
- Xətai rayonu, Babək prospektində yerləşən 0,3809 kv.m torpaq sahəsi, ünvan 11 ünvanda yerləşən 0,0804 ha torpaq sahəsi
- Nəsimi rayonunda yerləşən qeyri-yaşayış sahəsi
- Xətai rayonu, Babək prospekti 8/10 (10-cu Zavod-8) ünvanda yerləşən 733,7 kv.m qeyri-yaşayış sahəsi
- Bakıda yerləşən daha bir mənzil
- Ailə üzvlərinin adına olan 0,18 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsi
- Başqa bir yaşayış evi
- "Jeep Wrangler", "Mersedes Benz S500", "Bentley Continental" və "Mersedes Benz G63 AMG" markalı maşınlar.

Bundan başqa, hələ 2020-ci ildə Nadir İsmayılovun 24 milyon manat pulu bankdan yaxın qohumlarının adına götürdüyü iddia edilmişdi. Həmin vaxt Unikal.org-un əldə etdiyi məlumatda bildirilirdi ki, sabiq sədr sözügedən məbləği qardaşları Məzahir və Mahir İsmayılovlar, bacısı Afət İsmayılova, qardaşı uşaqları Asəf, Tural və Nicat İsmayılovlar, bacısının həyat yoldaşı Bünyatəli, bacısının filial müdiri işləyən həyat yoldaşı Natiq, qardaşının qudası Mehdinin adına götürüb. O da bildirilir ki, adları qeyd edilən şəxslər Nadir İsmayılov tərəfindən "Zaminbank" ASC-də müxtəlif vəzifələrə gətiriliblər.



Bütün bunları nəzərə alsaq, belə aydınlaşır ki, həbsdəki keçmiş bankirin Böyük Britaniyadakı bank hesabında 2.5 milyon funt-sterlinq (5,4 milyon AZN) pulunun olmasına təəccüblənməmək lazımdır. Əksinə, təəccüblü o olardı ki, İsmayılovun ölkə kənarında başqa varidatının olmadığı ortaya çıxsın. Belə bir versiya xeyli ağlabatan görünür və böyük ehtimalla "Zaminbank" ASC-nin sabiq rəhbərinə məxsus müxtəlif ölkələrdə daşınar, yaxud daşınmaz əmlaklar da vardır. Belə bir iddianı həbsdəki başqa bir keçmiş bankir Cahangir Hacıyevin təcrübəsi də təsdiqləyir.

Xatırladaq ki, "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sabiq sədri olmuş Hacıyevin yüz milyonlarla dollar vəsait çoxpilləli köçürmələr vasitəsilə ayrı-ayrı xarici ölkələrdə bilavasitə özlərinin yaratdığı fərqli adlar altında olan hüquqi şəxslərə ötürdüyü, beləliklə, Azərbaycandan kənarda böyük sərvət topladığı hüquq-mühafizə orqanlarının apardığı araşdırmalar nəticəsində ortaya çıxan konkret faktlarla təsdiqlənmişdi. Təkcə bir nümunəni yada salaq: C.Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva Böyük Britaniyada korrupsiyaya qarşı mübarizə qanununun hədəfinə çevrilmişdi. Səbəb xanım Hacıyevanın 2010-2016-cı illərdə ona və ailə üzvlərinə verilən 35 kredit kartından istifadə edərək lüks dükanlarda 16 milyon funt, yəni 21 milyon dollardan çox pul xərcləməsi idi. Onun təkcə bir gündə zərgərlik dükanında 200 min dollara yaxın pul xərclədiyi aydınlaşmışdı. Bundan başqa, 55 milyon dollara şəxsi təyyarə aldığı da məlum olmuşdu. Sadalanan məbləğlər Britaniyanın hüquq-mühafizə orqanlarının üzə çıxardığı faktların sadəcə bir qismidir. Həbsdəki bankirin ailəsinin bu ölkədə xeyli əmlaklarının varlığı da bəlli həqiqətdir.

Odur ki Nadir İsmayılovun da bankir olduğu dövrdə ölkədən xeyli pul çıxardığını, onun xaricdə böyük sərvətinin olduğunu düşünmək mümkündür. Bu mənada "Zaminbank"ın keçmiş rəhbərinin Böyük Britaniyadakı bank hesabında saxladığı 2.5 milyon funt-sterlinqi (5,4 milyon AZN) bir az da "dəryada damla" kimi qiymətləndirə bilərik...

***Toğrul Əliyev***

44_27 IYUl-QARA.qxd 12/12/2024 10:05 PM Page 12



**5.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ermənistanın müharibə cinayətləri dünyaya car çəkilir

## Pərvin Qasımova: "Mənim gözüm Gəncə terrorunda kor olsa da, dünya Ermənistanın müharibə cinayətlərini görməli, bu cinayətlərə hüquqi qiymət verməlidir

***Bir neçə gün öncə Ümumdünya İnsan Hüquqları Günü qeyd olunub. Ermənistanın Qarabağda işğal dövründə törətdiyi müharibə cinayətləri barədə 10 dekabr Ümumdünya İnsan Hüquqları Günündə yeni hesabat təqdim edilib.***

Qeyd edək ki, 44 günlük müharibə zamanı təcavüzkar Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən "Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirib. Buna Ermənistanın Gəncəyə, Mingəçevirə, Tərtərə, Bərdəyə, Qəbələyə və digər yaşayış məntəqələrimizə raket hücumları edərək müharibə və insanlıq əleyhinə törətdikləri cinayətləri misal gətirmək olar. 2020-ci ilin təkcə 11 oktyabr tarixində Ermənistan Silahlı Qüvvələrinin Gəncənin mərkəzi hissəsindəki çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 10 nəfər həlak olub, 35-dən çox şəxs yaralanıb, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib. Bu hadisədən bir neçə gün sonra, oktyabrın 17-də baş verən terror aktı zamanı 15 nəfər həlak olub, 50-dən çox şəxs xəsarət alıb. Ümumilikdə Gəncə 2020-ci ilin oktyabrında 5 gün - 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində raket atəşlərinə tutulub. Nəticədə 26 şəxs həlak olub, 120-dən artıq dinc sakin yaralanıb, irimiqyaslı dağıntılar baş verib.

Ermənilərin müharibə cinayətlərinin izini hələ də özündə yaşadan Gəncə terrorunda sağlamlığını itirən Pərvin Qasımovanın o gündən sonra bütün həyatı alt-üst olub. "Unikal"a müsahibəsində Pərvin Qasımova o dəhşətli günün üzərindən 4 il keçsə də, hər an o cinayətin ağrı-acısını yaşadığını söyləyir.

Müsahibimiz deyir ki, düşmənin törətdiyi insanlıq əleyhinə cinayət onu dünya işığından məhrum edib, ailəsindən ayrı salıb.



Gəncə terrorundan sonra Bakıda yaşayan Qasımovlar ailəsi Gəncəyə qayıtmağın Pərvin üçün çox çətin olduğunu söyləyir. Pərvinin anası İradə Qasımova deyir ki, ailənin tək övladı olan Pərvin gözlərini Gəncədə itirdiyinə görə Bakıda yaşamaq qərarını veriblər. Pərvinə və onun körpəsinə qulluq edən İradə Qasımova Ermənistanın bu insanlıq əleyhinə törətdiyi cinayətin cəzasız qalmasının böyük ədalətsizlik olduğunu söyləyir.

P.Qasımova deyir ki, terror hadisəsi baş verən gün anasıgildə olub. Yataq otağında uşaqlarının paltarını yığışdıran Pərvin gurultu səsi eşitdiyindən pəncərəyə yaxınlaşır. Bu zaman aldığı zərbədən yerə yıxılır. Ayıldıqda isə artıq hər yer onun üçün zülmət qaranlığa bürünmüşdü.

2020-ci ilin oktyabr ayında Gəncədə baş vermiş o dəhşətli cinayəti xatırlayan Pərvin atılan raketdən aldığı zərbələri hələ də unuda bilmir. Çünki, əllərinin kəsilmiş vətərinin izləri, bədəninə dolmuş qəlpələr, gözlərinə dolmuş şüşə qırıqları bu dəhşətli günü unutmağa imkan vermir. Gözlərinin işığını itirdikdən sonra həyat yoldaşından ayrılan Pərvinin bir körpəsi həyat yoldaşında, kiçiyi isə özündə qalır. O, xüsusi qayğıya ehtiyacı olduğundan, anasının himayəsinə verilir. Bu gün övladlarının xətrinə yaşamağa davam etdiyini söyləyən Pərvin bu cinayəti törədənlərin cəzalandırılmasını tələb edir. Bildirir ki, dünya onun timsalında , Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətləri, müharibə cinayətləri ilə bağlı həqiqətləri görməlidir.

"Mənim gözlərim Ermənistanın insanlıq əleyhinə törətdiyi cinayətdən sonra dünya işığına həsrət qaldı. Amma dünyanın, beynəlxalq təşkilatların gözü kor olmamalıdır. Onlar mənim timsalımda Ermənistanın insanlıq əleyhinə törətdiyi bu dəhşətli cinayəti görüb buna hüquqi qiymət verməli, Gəncəyə raket atıb dinc əhalini qıran, əlil qoyan cinayətkarları cəzalandırmalıdır. Mənim, Gəncə terrorunda, eləcə də Ermənistanla Azərbaycan arasında olan müharibədə əlil olan, ölən insanların haqqı tapdanmamalı, onlara qarşı bu cinayəti törədənlər ən sərt formada cəzalandırılmalıdırlar. Biz dünyadan, beynəlxalq hüquqdan ədalət gözləyirik", deyə Pərvin Qasımova bildirib.

Xatırladaq ki, Vətən Müharibəsi dövründə Gəncəyə Ermənistan tərəfindən ilk hücum 4 oktyabrda baş verib və bu zaman 1 mülki şəxs Əliyev Tunar Qoşqar oğlu şəhid olub, 30-dan çox mülki şəxs isə yaralanıb.

Ümumilikdə isə düşmən ordusu Gəncə şəhərinə 2020-ci ilin oktyabr ayı ərzində 5 dəfə raket zərbələri endirib. Nəticədə Gəncənin 27 dinc sakini həlak olub, 125 sakini isə müxtəlif dərəcəli xəsarətlər alıb. Yaşayış binaları, ticarət obyektləri, məktəblər dağıdılıb.

Ermənistanın 44 günlük müharibədə insanlıq əleyhinə cinayətləri bununla bitmir. Həmin dövrdə Bərdə şəhərinə raket hücumu zamanı qadağan olunmuş kaset tipli bombalardan istifadə edilib.

2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinə, oktyabrın 28-də isə Bərdə şəhərinə olan raket hücumları nəticəsində 27 nəfər həlak olub, 70 nəfərdən artıq insan yaralanıb. 2020-ci il oktyabrın 28-də düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin mərkəzinə hər birinin içərisində 72 ədəd, ümumilikdə 144 bombacıq olan "Smerç" tipli böyük dağıdıcı qüvvəyə malik 2 ballistik raket zərbəsi nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak olmuş, 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

27 sentyabr - 10 noyabr 2020-ci il tarixləri ərzində düşmən tərəfin silahlı birləşmələrinin dinc əhalini atəşə tutması nəticəsində 12 azyaşlı və 27 qadın olmaqla 93 nəfər qətlə yetirilib, 50 azyaşlı və 101 qadın olmaqla 407 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# MEDİA-nın kollektivi Heydər Əliyevin məzarını ziyarət etdi

***Dekabrın 12-də Medianın İnkişafı Agentliyinin və Audiovizual Şuranın rəhbərliyi və kollektivi Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar Fəxri xiyabana gələrək, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə gül dəstələri düzüblər.***

"Unikal" xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# Bakı-Ağstafa marşrutu üzrə əlavə qatar reysləri təyin edilib

***"Azərbaycan Dəmir Yolları" QSC (ADY) qarşıdan gələn bayram günlərində sərnişin tələbatını təmin etmək məqsədilə 30 dekabr-5 yanvarda Bakı-Ağstafa-Bakı marşrutu üzrə əlavə qatar reysləri təyin edib.***




"Unikal" bu barədə səhmdar cəmiyyətinə istinadən xəbər verir.

Məlumata görə, sözügedən reyslər qeyri-iş günü elan edilmiş 30 dekabr-5 yanvar tarixlərində hər gün olmaqla Bakıdan saat 09:15-də, Ağstafadan isə saat 17:00-da təşkil ediləcək.

Bundan əlavə, bu marşrut üzrə ənənəvi reyslərlə hər gün hər iki istiqamətdə səfər etmək olar.

"Qatarların hərəkət cədvəli və biletlər haqqında əlavə məlumatları dəmiryol vağzallarının kassalarından, ADY-nin rəsmi saytından (www.ady.az), "ADY Mobile" mobil tətbiqindən, eləcə də 24/7 xidmət göstərən 1822 Əlaqə Mərkəzindən əldə edə bilərsiniz",-deyə məlumatda qeyd edilib.

44_27 IYUl-QARA.qxd 12/12/2024 10:05 PM Page 13



## 2024-cü ilin yanvar-sentyabr aylarında Goranboyda nəqliyyat sektorunun göstəriciləri

***2024-cü ilin yanvar-sentyabr aylarında nəqliyyat sektorunda avtomobil nəqliyyatı ilə sərnişin daşınmasından əldə olunan gəlir 2567,2 min manat, yük daşınmasında isə 225,4 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sərnişin daşınmasından əldə olunan gəlir 4,9 faiz, yük daşınmasında isə 5,6 faiz çox olmuşdur.***

Ümumilikdə 2024-cü ilin yanvar-sentyabr ayları üzrə nəqliyyat və anbar təsərrüfatında ümumi məhsul buraxılışının dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 32,5 faiz artaraq 3900,6 min manat təşkil etmişdir. 2024-cü ilin yanvar-sentyabr aylarında nəqliyyat sektorunda avtomobil nəqliyyatı ilə 601 min ton yük, 7851 min sərnişin daşınmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə yük daşınmasında 6,9 faiz, sərnişin daşınmasında isə 7,6 faiz artım müşahidə olunmuşdur.

***Cədvəl 1***

| Göstəricinin adı | 2024-cü ilin yanvar-sentyabr aylarında | 2023-cü ilin yanvar-sentyabr aylarında | 2023-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| Sərnişin daşınmasından əldə olunan gəlir (min manat) | 2567,2 | 2446,9 | 104,9 |
| Yük daşınmasından əldə olunan gəlir (min manat) | 225,4 | 213,5 | 105,6 |
| Yük daşınması, min ton | 601 | 562 | 106,9 |
| Sərnişin daşınması, min sərnişin | 7851 | 7299 | 107,6 |

*Qrafik 7*

**Nəqliyyat sektorunun göstəriciləri**




***Goranboy Rayon Statistika İdarəsi***

## Ən çox şikayət edilən sığorta şirkətləri açıqlandı - Siyahı

***Son bir ildə Azərbaycanda avtomobillərin icbari sığortası üzrə ən çox şikayət edilən şirkət "Xalq Sığorta" (1.55 indeksi ilə) olub.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankının cari ilin noyabr ayı üzrə açıqladığı şikayət indeksində bildirilib. Məlumata görə, ötən ay ən çox şikayət edilən şirkətlər arasında "Paşa Sığorta" 1.34 indeksi ilə ikinci, "Atəşgah Sığorta" 0.89 indeksi ilə siyahıda üçüncü olub. Digər sığorta şirkətləri üzrə şikayət indeksi aşağıdakı kimidir:

**Cədvəl. Avto-icbari sığorta üzrə şikayət indeksi, Dekabr 2023 – Noyabr 2024**

| Sığortaçılar | Şikayət indeksi |
|---|---|
| "Xalq Sığorta" ASC | 1.55 |
| "Paşa Sığorta" ASC | 1.34 |
| "Atəşgah Sığorta" ASC | 0.89 |
| "Meqa Sığorta" ASC | 0.83 |
| "AtaSığorta" ASC | 0.68 |
| "Azərbaycan Sənaye Sığorta" ASC | 0.47 |
| "Qala Sığorta" ASC | 0.43 |

- *yuxarı şikayət indeksi (hesablama nəticəsində əldə olunan orta göstəricidən yuxarı olan)*
- *orta şikayət indeksi*
- *aşağı şikayət indeksi (hesablama nəticəsində əldə olunan orta göstəricidən aşağı olan)*

QEYD: Avto-icbari sığorta üzrə şikayət indeksi vətəndaşların bu növ üzrə sığorta xidmətlərini əldə edərkən seçim etmələrinə dəstək göstərilməsi məqsədilə hesablanılır və yayımlanır. Şikayət indeksinin hesablanmasında beynəlxalq səviyyədə istifadə olunan metodologiyaya əsaslanaraq avto-icbari sığorta növü üzrə lisenziyası aktiv olan sığorta şirkətləri ilə bağlı daxil olan şikayətlər nəzərə alınmışdır. Eyni zamanda avto-icbari sığorta növünün aparılması üzrə verilən icazənin ləğv edilməsi yolu ilə lisenziyasının qüvvəsi məhdudlaşdırılmış və lisenziyası ləğv olunmuş sığorta şirkətləri ilə bağlı şikayətlərin tənzimlənməsi Mərkəzi Bank tərəfindən əvvəlki qaydada davam etdirilir.

# Əhali 29,5 milyard manatlıq ərzaq alıb

***Bu ilin yanvar-noyabr aylarında Azərbaycanda pərakəndə ticarət şəbəkəsində istehlakçılara 53 milyard 867,7 milyon manatlıq, o cümlədən 29 milyard 534,8 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 24 milyard 332,9 milyon manatlıq qeyri-ərzaq malları satılıb.***



Bu barədə "Unikal" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir. Məlumata görə, 2023-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,8 %, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2 %, qeyri-ərzaq malları üzrə 6,1 % artıb.

Bu ilin yanvar-noyabr aylarında alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 50,6 %-i ərzaq məhsullarının, 4,2 %-i içkilər və tütün məmulatlarının, 15 %-i toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,8 %-i avtomobil benzini və dizel yanacağının, 5 %-i elektrik malları və mebellərin, 2,1 %-i əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,2 %-i kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,1 %-i isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

Hesabat dövründə qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə real ifadədə 3,8 % artaraq ümumi pərakəndə ticarət dövriyyəsinin 99,7 %-ini təşkil edib. 2023-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə 2024-cü ilin yanvar-noyabr aylarında pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 9,7 %, fərdi sahibkarlar üzrə 1 %, bazar və yarmarkalarda 3,1 % artıb.

Hesabat dövründə pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda 480 manatlıq, o cümlədən 263,2 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 216,8 manatlıq qeyri-ərzaq malları alıb.

# Muzdla çalışanların sayı açıqlandı

***2024-cü il noyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 773,3 min nəfər olub, onlardan 881,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 891,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.***

Bu barədə "Unikal" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.

Məlumata görə, muzdla işləyənlərin 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,4 faizi təhsil, 12,8 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,8 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 15,0 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.



# Anar Quliyev: Ölkə üzrə 16 baş plan üzərində iş gedir

***Son 6 ildə 26 baş plan hazırlanıb və təsdiq olunub.***



"Unikal" xəbər verir ki, bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, hazırda komitə bütün ölkə üzrə 16 baş plan üzərində çalışır: "9 plan artıq yekunlaşmaq üzrədir. Müvafiq qurumlarla razılaşma əldə olunub. Nazirlər Kabinetinə təsdiq üçün təqdim olunacaq".

Onun sözlərinə görə, İsmayıllı şəhərinin baş planı da bunlardan biridir.

# Ağdaşda heyvandarlıq məhsulları istehsalı artır

***Bu ilin yanvar-oktyabr aylarında Ağdaş rayonunda 164 milyon 204,6 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 53,0 faizi heyvandarlığın payına düşmüşdür.***

Əvvəlki ilin eyni dövrü ilə müqayisədə heyvandarlıq məhsullarının istehsalı müqayisəli qiymətlərlə 1,0 faiz və ya 847,6 min manat artaraq 86 milyon 993,9 min manat olmuşdur. Bu dövrdə rayonda 8 min 80 ton diri çəkidə ət, 38 min 153,6 ton süd, 20 min 154 ədəd yumurta istehsal olunmuşdur. 2023-cü ilin eyni dövrünə nisbətən ət istehsalı 0,1 faiz artmış, süd istehsalı 3,7 faiz azalmışdır.

2024-cü il oktyabr ayının 1-i vəziyyətinə rayonun təsərrüfatlarında 68,0 min baş iri buynuzlu mal-qara, o cümlədən 30,3 min baş inək və camış, 74,3 min baş qoyun və keçi mövcud olmuşdur.

**2024-cü ilin yanvar-sentyabr aylarında əsas kapitala yönəldilmiş investisiyalar artıb**



2024-cü ilin yanvar-sentyabr aylarında bütün maliyyə mənbələrindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 34 milyon 893,4 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,8 dəfə çox vəsait yönəldilmişdir. Ümumi vəsaitin 28 milyon 994,1 min manatı və ya 83,1 faizi dövlət, 5 milyon 899,3 min manatı və ya 16,9 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 29 milyon 496,5 min manatı və ya 84,5 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, 5 milyon 396,9 min manatı və ya 15,5 faizi isə maşın və avadanlıqların və digər əsas vəsaitlərin alınmasına sərf olunmuşdur. 2024-cü ilin yanvar-sentyabr aylarında tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsait əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,3 dəfə artmışdır.

***Arif Qurbanov,***
***Ağdaş Rayon Statistika İdarəsinin rəisi***

44_27 IYUI-QARA.qxd 12/12/2024 10:05 PM Page 14



# Deputatın adından sui-istifadə edilən məhkəmə işi: "Ümumiyyətlə, xəbərsizəm"

## Deputat Zahid Orucun adı hallanan dələduzluq işi ilə bağlı məhkəmə prosesi başlayıb.

***"Unikal"ın məlumatına görə, proses Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Aytən Əliyevanın sədrliyi ilə keçirilib. Belə ki, hazırda cinayət işində təqsirləndirilən şəxs qismində tanınan, Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda dələduzluq etmə) maddəsi ilə ittiham olunan Günay Həziyeva adlı qadın qızıl alverçisi kimi tanınan Sevinc Hümmətova ilə münasibətlər quraraq ondan külli miqdarda lom formasında qızıl götürüb.***



Zərərçəkən Sevinc Hümmətova məhkəmədə verdiyi ifadəsində bildirib ki, Günay ondan millət vəkili Zahid Orucun adından istifadə edərək onun üçün 700 qram qızıl alıb: "Hətta əlindəki bahalı "İpone" markalı telefonu da deyirdi ki, mənə Zahid Oruc alıb. Bir dəfə dedi ki, Türkiyədə 45 min manat alacağım var. Zahid Oruc gedir onu alıb gətirməyə. Gətirən kimi gedib bağında 15 gün dincələrik. Sən demə bizimlə telefonda konfransda Zahid Oruc adı ilə Anar adlı şəxs danışıb. Sonra Səbuhi adlı şəxsə ərə getdi, hətta evinə qonaq da çağırdı. Ondan sonra Səbuhi ilə birləşərək maşın alıb- satmaq adı ilə qızıllarımızı ələ keçirdi. Belə sözlərlə aldadıb Günay bizdən 2021-ci il ərzində 186 min 500 manatlıq qızıl-zinyət əşyalarımızı etibarımızdan sui istifadə edərək ələ keçirib".

Təqsirləndirilən şəxs Günay Həziyeva isə məhkəmədə özünü təqsirli bilməyib və ittihamı qəbul etmədiyini söyləyib.

Cinayət işinin sənədlərindən məlum oldu ki, ekspertiza qızılları 328 min manat dəyərində qiymətləndirib.

Sevinc Hümmətovadan başqa onun qohumları olan digər 3 nəfərdə eyni məzmunda ifadə verərək Günay Həziyevadan şikayətçi olduqlarını bildirdilər.

Qeyd edək ki, Günay Həziyeva dəymiş ziyandan 10 min manat zərərçəkmiş Cəmilə Zeynalovaya ibtidai istintaq müddətində ödəyib.

Zərərçəkmiş Sevinc Hümmətova hətta millət vəkili Zahid Oruca teleqram vurduğunu da qeyd etdi və bildirdi ki, Günay Həziyevanın Zahid Orucun adını hallandırması ilə bağlı səs yazılarını ibtidai istintaqa təqdim edib.

Məhkəmə prosesi 19 dekabr tarixinə kimi təxirə salınıb.

Milli Məclisinin deputatı, Sosial Tədqiqatlar Mərkəzinin (STM) İdarə Heyətinin sədri Zahid Oruc redaksiyaya zəng edərək adının hallandığı məhkəmə prosesi barədə fikirlərini bildirib.

"Unikal"a açıqlama verən deputat deyib ki, adıçəkilən şəxslərin heç birini tanımır və belə bir hadisənin olmasından, ümumiyyətlə, xəbərsizdir: "Görünür, kimlərsə tanınmış bir şəxs olduğum üçün əsassız yerə mənim adımdan istifadə edib".

***Seymur Əli***

# Haqq savaşımızın qəhrəman oğlu



***Erməni faşistlərinə qarşı haqq savaşımızda Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuzun, əsgər və zabitlərin şücaəti, qəhrəmanlığı sayəsində 30 ilə yaxın işğal altında qalan əzəli yurd yerimiz - Qarabağımız azadlığa qovuşdu.***

Bu müqəddəs yolda qanı ilə tarix yazaraq 22 yaşında şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan biri də Cəlilabadın Bəcirəvan kəndində boya-başa çatan Ayaz Nizami oğlu Abbasov oldu. Bununla da xalqımızın igid, vətənpərvər oğlu qəhrəmanlıq simvoluna çevrilib qəlblərdə özünə yuva qurdu. Dövlət tərəfindən müharibə meydanında göstərdiyi fədakarlığı "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görüldü. Ən əsası isə özü cismən bu dünyadan getsə də, haqq yolunda tökdüyü qanla torpaq canlanır, Vətən yaşayır.

Ayaz Abbasov həyatı dərk edən gündən gözəl arzularla Vətənin daşına, torpağına, yaşadığı yurd yerinə ürəkdən sevdalanır. Həm də əxlaqı saf, əqidəsi dürüst gənc Vətənin müqəddəs bir parçasının yada yurd olmağını heç cür vicdanına sığışdıra bilməzdi. Odur ki, Ayaz nəyin bahasına olursa-olsun Qarabağımızın tezliklə mənfur düşmən tapdağından azad görmək istəyi ilə ordu sıralarına yollanıb. Əsgərliyə cəbhə xəttində başlayıb. Və yağı düşmənlə qarşı-qarşıya Vətən qarşısında olan müqəddəs borcunu şərəflə yerinə yetirib. Cəsurluğu, çevikliyi, dosta qarşı sədaqəti onu hərbi hissədə hamının sevimlisinə çevirib. Həmçinin Ayaz bir qayda olaraq Qarabağımızın azadlığı naminə mübarizə meydanına, ermənilərlə döyüşə can atıb...

Qəlbi Vətən eşqli Ayazın əsgərliyi başa çatıb. Onun düşməndən alacağı öcü isə hələ qalırdı. Məhz buna görə istəyinə çatmaq üçün hərbiçi olmağa qərar verib. 2017-ci ildə Azərbaycan Daxili Qoşunlarının xüsusi təyinatlı dəstələrinin birində müddətdən artıq hərbi xidmət edib. Çox keçmədən yağı düşməndən qisas alaraq Vətən torpaqların azad etmək məqamı yetişib. Belə ki, 2020-ci ilin 27 sentyabrında Ayaz qeyrətli oğullar cərgəsində əlinə silah alıb qorxmadan odun-alovun içinə girib. İlk gündən mərdliyi, qəhrəmanlığı yağının belini qırıb. Qeyri-bərabər döyüşlərdə neçə-neçə erməni əsgərin axırına çıxıb. Ağır müharibə meydanlarında torpaq uğrunda can qoyan və yağıya qarşı mərdliklə vuruşan qəhrəman Vətən sevdalısı oktyabrın 3-də Cəbrayılda əbədi ölümsüzlük- şəhidlik qazanıb.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# 2024-cü ilin yanvar-oktyabr aylarında Abşeron rayonunda bitkiçilik statistikası



***Bəşər insanlarının varlığını kənd təsərrüfatı, onun ayrılmaz sahəsi olan bitkiçilik, heyvandarlıq və emal məhsulları olmadan təsəvvür etmək mümkün deyildir. Xüsusilə bitkiçilik elə bir sahədir ki, aqrar təsərrüfatın digər sektorları, yüngül və qida sənayesi onunla birbaşa bağlıdır.***

Hazırda ölkəmizdə də kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. Abşeron rayonu da bu siyasətin həyata keçirilməsində əhəmiyyətli rola malikdir. Rayonun iqtisadiyyatında kənd təsərrüfatı əhəmiyyətli mövqe tutur. Xüsusilə taxıl istehsalı rayonda bütün dövrlərdə diqqətdə olmuş və dövlətlərin iqtisadi inkişaf siyasətinin əsas meyarlarından birinə çevrilmişdir. Hal-hazırda rayonda əkinçiliyin taxılçılıq, kartofçuluq, tərəvəzçilik və sair sahələri də inkişaf etmişdir. Belə ki, 2024-sü ilin yanvar-oktyabr aylarında 365,5 hektar sahədə payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkini aparılmış və bu əkin sahəsindən 416,7 ton məhsul yığılmışdır. Məhsul yığımı 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 41,6 ton azalmışdır. Bu dövrdə rayonda tərəvəzin əkin sahəsi 671,0 hektar olmuşdur ki, bu əkin sahəsinin 653,5 hektarından 110933,3 ton məhsul yığılmışdır. Bundan başqa ilin 10 ayı ərzində 7 hektar sahədən 94,0 ton kartof, 116,4 hektar sahədən 1252,5 ton bostan bitkiləri yığılmışdır. Meyvə və giləmeyvənin də məhsuldarlığında artım müşahidə edilir. Belə ki, bu dövrdə 4911,5 hektar sahədən 4691,0 ton məhsul yığımı olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 75,6 faiz olmaqla 2020,2 ton çoxdur. Rayonda 586,6 ton məhsul yığılmaqla üzümün məhsuldarlığında da yüksək nəticə əldə olunub.

***Abşeron Rayon Statistika İdarəsinin rəis müavini Aygün Allahverdiyeva***

# Siyəzən rayonunda kənd təsərrüfatı məhsullarının istehsalı barədə

***2024-cü ilin yanvar-sentyabr aylarında kənd təsərrüfatı üzrə ümumi məhsulun faktiki qiymətlərlə dəyəri 157183,1 min manat təşkil etmiş, 2023-cü ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 2,3 faiz azalmışdır.***

Oktyabr ayının 1-i vəziyyətinə 5084,0 hektar sahədən 11097,0 ton taxıl, 2,0 hektar sahədən 4,0 ton qarğıdalı, 1,0 hektar sahədən 1,2 ton paxlalı bitkilər, 1,0 hektar sahədən 1,0 ton günəbaxan dəni, 108,0 hektar sahədən 1131,1 ton kartof, tərəvəz və bostan bitkiləri, 402,0 hektar sahədən 834,8 ton yem bitkisi, meyvə bağlarından 1111,5 ton meyvə, giləmeyvə bağlarından 114,6 ton giləmeyvə, üzüm bağlarından 247,6 ton üzüm yığılmışdır.

***Siyəzən Rayon Statistika İdarəsinin rəisi Kamil Xəlilov***

# Şirvan suvarma kanalının bir hissəsi bərpa edilib

***Şirvan suvarma kanalının Göyçay rayonundan keçən hissəsi tam bərpa olunub.***

Bu barədə "Unikal"a Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən məlumat verilib.

Bildirilir ki, Lək kəndi ərazisində torpaq qatının yarılması nəticəsində yaranan problem tam aradan qaldırılıb. Suvarma kanalında canlı qüvvə və ağır texnika vasitəsilə aparılan təmir-bərpa işləri başa çatdırılıb, təhlükəsizlik tədbirləri görülüb.

Qeyd edək ki, kanal dağıntısı zamanı yaranmış problem ətraf ərazilərdə heç bir fəsat yaratmayıb.



## "ATƏT Avropada parçalanmanı dərinləşdirmək niyyətindədir" - Zaxarova

***Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ATƏT-in xüsusi nümayəndəsi Petr Mareşin Ukraynanın Aİ və NATO-ya daxil olmağa hazırlaşması ilə bağlı sözlərini şərh edib.***

"Unikal" xəbər verir ki, bu barədə o "Telegram" kanalında yazıb. "ATƏT-in bu kvazi-nümayəndəsi təşkilata üzv ölkələr arasında münasibətlərin uyğunlaşdırılması ilə deyil, Avropa məkanında parçalanmanın dərinləşdirilməsi və ATƏT üzvünün yarısını belə daxil etməyən militarist blok strukturlarının xeyrinə oynamaqla məşğuldur", - Zaxarova bildirib.

*Gülayə Mecid*

## "Zəngəzur dəhlizi əvəzolunmaz layihələrdən biridir" - Türkiyəli nazir



***"Zəngəzur dəhlizi bizim üçün əvəzolunmaz layihələrdən biridir".***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Abdulkadir Uraloğlu deyib.

"Bu dəhlizin həyata keçirilməsi Azərbaycan, türk dövlətləri və Uzaq Şərqlə birbaşa əlaqəni təmin edəcək", - o qeyd edib.

*Ağarza Elçinoğlu*

## "Biz Trampa güvənirik" - Zelenski

***"Ukraynalılar seçilmiş Amerika prezidenti Donald Tramp və onun komandasına güvənir".***

"Unikal" xəbər verir ki, bunu Ukrayna prezidenti Volodimir Zelenski CBN telekanalına müsahibəsində bildirib.

"Bu gün insanlar ABŞ-nin yeni administrasiyasına, yeni prezidentə belə ümid bəsləyirlər və insanlar onun dediklərinə inanırlar", - deyə Ukrayna lideri bildirib.

O, həmçinin Trampın Ukrayna münaqişəsinə 24 saat ərzində son qoymaq istəyi ilə bağlı sözlərinə münasibət bildirib. Zelenskinin sözlərinə görə, bu o deməkdir ki, ABŞ-nin yeni prezidenti mövcud vəziyyəti tez bir zamanda həll etmək istəyir.

*Gülayə Mecid*

## Ermənistan tərəfi sərhəddə partlayışla bağlı açıqlama yaydı

***Ötən gün günorta saatlarından axşama qədər Ermənistanın Tavuş rayonunun Azərbaycanla sərhəddə yerləşən Berkaber və Kirants kəndlərinə bitişik ərazidə partlayışlar işləri aparılacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın Müdafiə Nazirliyi məlumat yayıb.

Berkaber kəndinə bitişik ərazidə 5 partlayış və Kirants kəndinə bitişik ərazidə 1 partlayış olacaq.

Nazirlik partlayış işlərinin hansı məqsədlə baş tutacağını açıqlamayıb.

*Ağarza Elçinoğlu*

# "Rusiya Orbanın təkliflərini dəstəkləyir" - Peskov

***"Rusiya sülh danışıqlarından heç vaxt imtina etməyib və 2022-ci il İstanbul razılaşmaları əsasında danışıqları bərpa etməyə hazır olduğunu dəfələrlə bəyan edib".***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Macarıstanın mümkün Rusiya-Ukrayna sülh danışıqları ilə bağlı təkliflərini şərh edərkən deyib.



Onun sözlərinə görə, Budapeştin təklifindən sonra Rusiya Federal Təhlükəsizlik Xidməti Rusiya tərəfinin əsirlərin dəyişdirilməsi ilə bağlı təkliflərini Macarıstanın Moskvadakı səfirliyinə göndərib.

"Lakin Zelenskinin sosial şəbəkələrdə, eləcə də onun ətrafındakıların reaksiyasına əsasən, Ukrayna tərəfi Macarıstanın baş naziri Viktor Orbanın bütün təkliflərini rədd etdi", - Kreml sözçüsü bildirib.

Peskov aydınlıq gətirib ki, sülhün bərqərar olması ilə bağlı məsləhətləşmələr davam edəcək. Rusiya Macarıstanın baş nazirinin sülh yolu ilə nizamlanmasına və əsirlərin mübadiləsi ilə bağlı humanitar məsələlərin həllinə yönəlmiş səylərini tam dəstəkləyir.

*Gülayə Mecid*

# "Mütləq cavab veriləcək" - Kremldən qisas açıqlaması

***Rusiya Taqanroq aerodromuna edilən ATACMS raket hücumuna mütləq cavab veriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov açıqlayıb.

"Rusiya Federasiyası Müdafiə Nazirliyinin dünənki tamamilə birmənalı və birbaşa bəyanatını xatırlatmaq istərdim. Bu bəyanata görə cavab veriləcək", - Peskov bildirib.

O vurğulayıb ki, cavab uyğun hesab edilən zaman və qaydada veriləcək. Ancaq bu, mütləq baş verəcək.

*Ağarza Elçinoğlu*



# Gürcüstan Qərbi etirazları maliyyələşdirməkdə ittiham edib

***Gürcüstandakı etiraz aksiyaları Qərb dövlətləri tərəfindən liberal fondlar vasitəsilə maliyyələşdirilir.***

"Unikal" xəbər verir ki, bu barədə gürcü hüquq müdafiəçisi Nana Kakabadze deyib.

"Hazırda etiraz aksiyaları liberal fondlar tərəfindən maliyyələşdirilir. Onlar Qərbdən gələn sifarişləri



yerinə yetirirlər, lakin Gürcüstanın maraqlarını nəzərə almırlar", - deyə o vurğulayıb.

Hüquq müdafiəçisinin sözlərinə görə, onun adını çəkdiyi fondlar Gürcüstanın özündəki vəziyyətlə maraqlanmır, sadəcə olaraq "Qərbdən aldıqları sifarişi" yerinə yetirməklə məşğuldurlar.

*Gülayə Mecid*

# "Türkiyə bu məsələ ilə bağlı ABŞ-ni xəbərdar edəcək" - KİV

***Türkiyə Suriyanın şimalında PKK terror təşkilatının mövcudluğuna son qoyması üçün ABŞ-yə xəbərdarlıq edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə "CNN Türk" nəşri məlumat dərc edib.

KİV yazır ki, əks halda Ankaranın özü bölgəni terrorçulardan təmizləmək üçün tədbirlər görəcək.

Nəşrin məlumatına görə, Türkiyə tərəfinin bu mesajı Ankarada respublikanın xarici işlər naziri Hakan Fidan və ABŞ dövlət katibi Antoni Blinken arasında dekabrın 13-nə planlaşdırılan danışıqlarda açıqlanacaq.

Xüsusilə, Türkiyə tərəfi Vaşinqtonun Suriya ilə bağlı öhdəliklərini yerinə yetirməməsinə və PKK və onun Suriya qolu olan Xalq Müdafiə Qüvvələrinə (SDQ) dəstəyi dayandırmağın vacibliyinə diqqət çəkəcək.

"Türkiyənin Suriyanın şimalı ilə bağlı əsas məqsədi əvvəlcə sərhəddə 30-40 km dərinlikdə təhlükəsizliyi təmin etmək olub. Bu məsələ ilə bağlı ABŞ və Türkiyə arasında razılaşma olub, öhdəliklər götürülüb, amma yerinə yetirilməyib", - kanal qeyd edir.



*Gülayə Mecid*

# "SSRİ xəritələrindən imtina etsək..." - Paşinyan

***"Mövcud olmayan SSRİ-nin xəritələrinin yolverilməzliyindən söhbət gedir, birbaşa deməliyəm ki, bu yanaşma Ermənistan üçün çox təhlükəlidir, çünki SSRİ dövrünün xəritələrindən imtina etmək dövlətçilikdən və müstəqillikdən imtina etmək demək olar".***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan öz "Facebook" səhifəsində yazıb.

Paşinyanın sözlərinə görə, ölkə Sovet Ermənistanının ərazisində müstəqillik əldə edib və beynəlxalq ictimaiyyət tərəfindən beynəlxalq səviyyədə tanınmış ərazilərlə bağlılıq dövlət üçün mühüm təhlükəsizlik buferidir: "Mən bir neçə dəfə ictimai çıxışlarda demişəm ki, biz özümüz beynəlxalq səviyyədə tanınmış ərazimizi dəqiq tanımırıqsa, başqalarının da tanımamasına imkan veririk. Beynəlxalq səviyyədə tanınmış ərazilərimizi dəqiq tanımamaqla öz qapımızı digərlərinə açırıq. İndi isə biz suveren ərazi vermədik, öz qapımızı, dövlətimizin sərhəddini, dövlətimizin astanasını düzəltdik və bunu uğur hekayəsi hesab edirəm. Kirantsa gedin və bu uğuru öz gözlərinizlə görəcəksiniz".

*Ağarza Elçinoğlu*

# "Burdakı soyuq hava "Qarabağ"a xoş olmaya bilər" - "Elfsborq"un futbolçusu

***"Biz çox şadıq. Qarşıda komandamızı çox maraqlı oyun gözləyir. Cümə günü keçirdiyimiz yoxlama matçından sonra biz tam olaraq "Qarabağ"la oyuna köklənmişik".***

QOL.az xəbər verir ki, bu sözləri İsveçin "Elfsborq" komandasının futbolçusu Ahmed Kasem bildirib. O, klubun saytına açıqlamasında bu gün Azərbaycan çempionuna qarşı keçiriləcək Avropa Liqasının 6-cı turunun oyunu barədə fikirlərini açıqlayıb.



İsveç millisinin 21 yaşlı yarımüdafiəçisi deyib: "Fikrimcə, komanda yoldaşlarım da mənim razılaşar ki, bu, bizim üçün ilin ən vacib oyunu olacaq. Bizə xal, daha yaxşısı isə qələbə lazımdır. Yalnız bu barədə düşünürük. Əgər "pley-off"da oynamaq istəyiriksə, qələbəyə can atmalı və 2024-cü ili klubumuz, azarkeşlərimiz və özümüz üçün yaxşı sonluqla yekunlaşdırmalıyıq".

Bəs, "Elfsborq" 3 xalı necə qazana bilər?

Bu suala cavabında A.Kasem deyib: "Biz mütləq oyunumuzdakı intensivliyi yüksək saxlamalıyıq. Düşünürəm ki, meydanda çətin mübarizə olacaq, hər iki komanda qol vurmalıdır. Ancaq qalib gəlmək üçün hücumlardan lazımi istifadə etsək, yaxşı şansımız olacaq".

Ahmed Kasem "Qarabağ" barədə danışarkən bildirib:

"Qarabağ"ın 3 xalı var. Onlara da xal lazımdır. "Qarabağ"ın Avropa təcrübəsi böyükdür. Son 11 ildə Avropa kuboklarının qrup mərhələlərində oynayır. Bu, hücumda çoxlu yaxşı futbolçusu olan təcrübəli komandadır. Amma bizim üçün uyğun da ola bilərlər. Onlar Burosda soyuq hava ilə qarşılaşacaqlar. Biz buna öyrəşmişik. Amma rəqibimiz üçün belə hava xoş olmaya bilər. Ümid edirəm, dördüncü günü hava daha da soyuq olacaq".

Xatırladaq ki, "Elfsborq" - "Qarabağ" matçı bu gecə Bakı vaxtı ilə saat 00:00-da başlanacaq.

Hazırda turnir cədvəlində "Elfsborq" 4 xalla 28-ci, "Qarabağ" isə 3 xalla 32-cidir.

# "Dünyanın ən yaxşı məşqçisi bizdədir" - PSJ-nin prezidenti

***PSJ-nin prezidenti Nasser Əl-Xelayfi Çempionlar Liqasının Liqa mərhələsinin 6-cı turunda "Zalsburq"la oyundan (3:0) sonra komandanın baş məşqçisi Luis Enrike haqda danışıb.***

"Unikal" xəbər verir ki, o, mütəxəssisə dəstək olub: "Luis Enrike bizimlə qalacaq. Onunla uzunmüddətli layihə qururuq. Enrike bunu bilir. Dünyanın ən yaxşı məşqçisi bizdədir.

"Zalsburq"la matç çox vacib idi. Hətta demək olar ki, bu matç Çempionlar Liqasında oynamağa davam etmək baxımından həlledici idi. Biz yaxşı oynadıq, qollar vurduq. Bu, gələcəyə böyük inam yaradacaq".




# AFFA iki komandaya texniki məğlubiyyət verdi

***AFFA iki komandaya texniki məğlubiyyət verib.***

"Unikal"ın məlumatına görə, bu barədə qurumun İntizam Komitəsinin iclasında qərar qəbul edilib.

Əvəzedicilər Liqasının XVI turunun "Sumqayıt-2" - "Neftçi-2" oyununun 76-cı dəqiqəsində "Sumqayıt-2" komandasının heyətində adı matçın protokolunda olmayan futbolçu Kənan Cavadlı meydana daxil olduğuna görə hesab saxlanılmaqla (0:3) Sumqayıt komandasına texniki məğlubiyyət verilib. Bununla yanaşı, klub 400 manat cərimələnib.




AFFA U-16 Liqasında keçirilən "Səbail" - "Turan Tovuz" matçında heyətdə adı protokolda qeyd edilməyən futbolçu yer aldığına görə Tovuz klubuna 0:3 hesablı texniki məğlubiyyət verilib.

# "Barselona" qələbə qazandı, "Mançester Siti" uduzdu

***UEFA Çempionlar Liqasının əsas mərhələsində VI tura yekun vurulub.***

"Unikal" xəbər verir ki, gecənin ilk oyunları İspaniya və Fransada keçirilib. Müvafiq olaraq, "Atletiko" Slovakiyanın "Slovan" komandasını 3:1, "Lill" isə Avstriyanın "Ştürm" klubunu 3:2 hesabı ilə məğlub edib.

Turun maraqla gözlənilən görüşlərində İspaniya "Barselona"sı Almaniyada Dortmund "Borussiya"sına 3:2 hesabı ilə qalib gəlib. İngiltərənin "Mançester Siti" klubu isə İtaliyada "Yuventus"a 0:2 hesabı ilə uduzub.

UEFA Çempionlar Liqası: Liqa mərhələsi, VI tur

"Atletiko" (İspaniya) - "Slovan" (Slovakiya) - 3:1

"Lill" (Fransa) - "Ştürm" (Avstriya) - 3:2

"Borussiya" (Almaniya, Dortmund) - "Barselona" (İspaniya) - 2:3

"Yuventus" (İtaliya) - "Mançester Siti" (İngiltərə) - 2:0

"Benfika" (Portuqaliya) - "Bolonya" (İtaliya) - 0:0

"Arsenal" (İngiltərə) - "Monako" (Fransa) - 3:0

"Milan" (İtaliya) - "Srvena Zvezda" (Serbiya) - 2:1

"Feyenoord" (Niderland) - "Sparta" (Çexiya) - 4:2



"Ştutqart" (Almaniya) - "Yanq Boyz" (İsveçrə) - 5:1

Qeyd edək ki, Liqa mərhələsində VII turun oyunları 2025-ci il yanvarın 21-i və 22-də keçiriləcək.



# Rəşad Sadiqov beş oyunluq cəzalandı

***"Qarabağ"ın U-17 komandasının baş məşqçisi Rəşad Sadiqov beş oyunluq cəzalanıb.***

"Unikal"ın məlumatına görə, bu barədə AFFA İntizam Komitəsi qərar çıxarıb.

Mütəxəssis U-17 Liqasında "Sabah"la matçın 57-ci dəqiqəsində hakimləri və federasiyanı təhqir etdiyi üçün qırmızı vərəqə alıb.

# Kenan Yıldız "Yuventus"un tarixinə düşdü

***Türkiyə millisinin futbolçusu Kenan Yıldız hazırda çıxış etdiyi İtaliyanın "Yuventus" komandasının tarixinə düşüb.***

"Unikal" xəbər verir ki, gənc hücumçu buna UEFA Çempionlar Liqasının əsas mərhələsində evdə İngiltərənin "Mançester Siti" klubuna 2:0 hesabı ilə qalib gəldikləri VI tur oyununda nail olub.

O, qitənin ən nüfuzlu klub turnirində Turin təmsilçisinin heyətində 20 yaşadək 6 görüşə çıxan üçüncü futbolçu olub. Daha əvvəl komandanın sabiq üzvü Pol Poqba və hazırda icarə əsasında "Cenoa"da çıxış edən Fabio Miretti bu göstərici üzrə fərqlənib.

Qeyd edək ki, 19 yaşlı Kənan Yıldız bu mövsüm "Yuventus"un heyətində 21 matçda 4 qol və 4 məhsuldar ötürmə ilə yadda qalıb.

# "Qarabağ" cərimələndi

***AFFA İntizam Komitəsi "Qarabağ" klubunu 2000 manat cərimələyib.***

"Unikal" xəbər verir ki, buna Ağdam təmsilçisinin Misli Premyer Liqasının XVI turunda "Sabah"la heç-heçə etdiyi (1:1) matçda yaşananlar səbəb olub.

"Köhlən atlar" azarkeşlər pirotexniki vasitədən istifadə edildiyinə görə 1500 manat ziyana düşüb.

Ağdam təmsilçisi sözügedən qarşılaşmada fanatlar tərəfindən təhqiramiz ifadələr səsləndirildiyi (bu hal cari mövsüm ikinci dəfə yaşanır) üçün 500 manat ödəyəcək.

"Səbail" klubu isə 700 manat cərimə olunub. "Dənizçilər"in dörd üzvü "Araz-Naxçıvan"a 0:2 hesabı ilə uduzduqları görüşdə sarı vərəqə ilə cəzalandırılıb.

# "Ordu"dan 34 xal fərqlə qələbə

***Azərbaycan Basketbol Liqasında VI turun növbəti matçı keçirilib.***

"Unikal" xəbər verir ki, B qrupunda 1 oyun baş tutub. "Ordu" "Sumqayıt"ı sınağa çəkib. Son oyunda məğlub olan meydan sahibləri bunu unutdurublar. Onlar qonaq komandanı fərqli məğlub ediblər. "Ordu" 115:81 hesabı ilə üstün olub.

Qeyd edək ki, turun ilk matçlarında "Naxçıvan" "Neftçi"ni 83:72, "Sabah" isə "Sərhədçi"ni 67:64 hesabı ilə məğlub edib. Dekabrın 13-də "Abşeron" NTD-ni, bir gün sonra "Gəncə" "Lənkəran"ı qəbul edəcək. Tura "Quba" - "Şəki" görüşü ilə yekun vurulacaq.